YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
12 sentyabr 2026-cı il, şənbə
№ 165 (7232)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Sərhədləri aşan missiya...



## Azərbaycanın geniş məzmuna malik humanitar diplomatiyası 140-dan çox ölkəni əhatə edir

Bax səh. 2

## Davamlı tərəqqi, tarixi nailiyyətlər və yeni hədəflər

Bax səh. 6

## Çində Azərbaycanın təqdimatı

Azərbaycan Pekində keçirilən Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisində (CIFTIS) iştirak edir. “Qlobal xidmətlər, ortaq rifah” devizi altında keçirilən bu ilki sərgidə 90-dan çox ölkədən 1300 şirkət, o cümlədən “Fortune Global 500” siyahısından 473 firma, habelə beynəlxalq təşkilatlar iştirak edir. Sentyabrın 13-dək davam edəcək sərgi çərçivəsində 200-ə yaxın forum, konfrans, digər biznes tədbiri keçiriləcək. Sərgidə informasiya və kommunikasiya, maliyyə xidmətləri və texnologiyalar, rəqəmsal və intellektual səhiyyə kimi sahələri əhatə edən 100-dən çox yeni məhsul və xidmət təqdim olunacaq. Əsas sərgi sahəsində süni intellekt, böyük dil modelləri və ağıllı agentlər də daxil olmaqla, xidmət ticarətinin 12 kateqoriyasını əhatə edən 140-dan çox innovasiya nümunəsi nümayiş olunur.

CIFTIS müxtəlif ölkələr arasında əlaqələri gücləndirmək və ticarət xidmətlərini genişləndirmək üçün vacib bir vasitədir. Bu platforma dünyanın müxtəlif ölkələri üçün yeni imkanlar və əməkdaşlıq yolları açır. Çinin Kommersiya Nazirliyinin məlumatına görə, ilin ilk yarısında ölkənin xidmətlər ticarətinin həcmi 8,3 faiz artaraq 3,78 trilyon yuana (təxminən 563 milyard dollar) çatıb. CIFTIS Çin şirkətlərinin qloballaşmasından başqa, xarici şirkətlərin də Çin bazarına inamı ildən-ilə artır.

İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) və Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı...

Bax səh. 4




## Özəl sektor-maliyyə təşkilatları arasında əməkdaşlıq platforması

Bax səh. 4

## “Moody`s”: Azərbaycan bankları və şirkətləri geosiyasi risklərə qarşı dayanıqlıdır

Bax səh. 4

## İrəvan ziyalılarından Mirməhəmməd Mirfətullayev

Bax səh. 7

## Rəqəmsal dünyanın memarları...

Görünməyən, amma həyatımızın demək olar ki, hər anında iştirak edən başqa bir dünya da var - kodlar dünyası. Telefonumuzda açılan tətbiqdən tutmuş bank əməliyyatına, sosial şəbəkədən onlayn alış-verişə, hətta bəzi avtomobillərin idarəetmə sisteminə qədər hər şeyin arxasında proqramçıların yazdığı kod dayanır.

Onların işi kənardan çox sadə görünə bilər: kompüter qarşısında oturur, kod yazır və proqram hazır olur. Əslində isə işin ən maraqlı və çətin hissələrindən biri artıq yazılmış kodun içərisində baş verən problemi tapmaqdır.

Yeri gəlmişkən, 13 sentyabr Beynəlxalq Proqramçılar Günüdür. Hər il ilin 256-cı günü beynəlxalq səviyyədə qeyd olunur. Bu gün dünyanın bir çox ölkəsində qeyd olunsa da, Rusiyada rəsmi bayram elan edilib.

Həmin təqvimin qeyd olunması fikri rusiyalı proqramçılar Mixail Çervyakov və Valentin Balt tərəfindən 2002-ci ildə irəli sürülüb. Onlar 256 rəqəmini ikili kod sisteminə, yəni rəqəmsal informasiyada səkkiz bitin bir baytla ifadə olunduğu fərqli dəyərlərə görə seçiblər.

Proqramlaşdırmada “bug” adlandırılan xətalar bəzən bir simvol, bir nöqtə və ya bir işarə qədər kiçik səbəbdən yaranır. Nəticədə isə böyük bir sistem işləməyə bilər. Məhz buna görə proqramçıların işində maraqlı bir paradoks var: bəzən saatlarla görülən iş bir sətr kod yazmaqdan deyil, həmin bir sətrin niyə işləmədiyini tapmaqdan ibarət olur.

Maraqlıdır ki, proqramçıların işində yalnız texniki bilik kifayət etmir...

Bax səh. 8

## Qlobal enerji transformasiyası



Bax səh. 7
Bax səh. 7

# Sərhədləri aşan missiya...

## Azərbaycanın geniş məzmuna malik humanitar diplomatiyası 140-dan çox ölkəni əhatə edir

Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursu xoş məramə əsaslanır və burada xalqımıza xas olan humanizm ənənələrinin qorunmasına xüsusi önəm verilir. 2011-ci ildə Xarici İşlər Nazirliyinin (XİN) nəzdində yaradılan Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) dünyanın yardıma ehtiyacı olan, deməli olar ki, bütün ölkələrində humanitar fəaliyyətlər həyata keçirib və beynəlxalq miqyasda təqdir olunan işini hazırda da geniş miqyasda davam etdirir. Bu günlərdə Bakıda qurumun yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.

Konfransda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın yardım alan ölkədən donor ölkəyə çevrilməsi, AIDA-nın 15 illik fəaliyyəti, ölkəmizin beynəlxalq inkişaf əməkdaşlığına töhfələri barədə danışıb və bu siyasətin gələcəkdə də davam etdiriləcəyini bildirib.

Konfrans çərçivəsində, həmçinin AIDA ilə Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında Anlaşma Memorandumu imzalanıb və panel müzakirələri aparılıb.

### Xoşməramlı siyasətin genişlənən coğrafiyası

Ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan da zamanında ədalətsiz müharibəyə cəlb olunan və humanitar fəlakətlə üzləşən ölkədir. Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir. Ölkəmiz daim o mövqedən çıxış edir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Bu gün biz qürur duyuruq ki, güclü Azərbaycanın dünyanın ayrı-ayrı regionlarını əhatə edən yardım proqramları uğurla icra edilir və bundan milyonlarla insan faydalanır.

Bu barədə konkret təsəvvürün yaranması üçün bəzi faktları xatırlatmaq yerinə düşər. Uzanan müharibə ilə ələqədar Ukraynada yaşanan humanitar fəlakət hər kəsə bəllidir. Aktiv döyüş əməliyyatlarının getdiyi bölgələrin milyonlarla sakini doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb. Ölkənin infrastruktur təminatında, xüsusilə də enerji təchizatında vəziyyət kritik dərəcədə ağırdır. Davamlı hava zərbələrinin nəticəsi olaraq enerji təchizatı obyektlərinə ciddi ziyan dəyib. Tələbat kəskin şəkildə ödənilmədiyinə görə, ölkədə energetika sahəsində fövqəladə vəziyyət rejimi tətbiq olunub. Ən çətin vəziyyət Kiyevdə, eləcə də ölkənin mərkəzi, şimal və şərq bölgələrində müşahidə olunur. Belə çətin durumda “Ukrayna üçün istilik (Warm-ForUkraine)” adlı qlobal aksiyaya start verilib. Aksiyanın məqsədi Ukrayna üçün generatorların və istilik qurğularının alınması məqsədilə vəsait toplamaqdır. Çağırış bütün dünyada olduğu kimi, Azərbaycanda da rəğbətlə qarşılanıb.

Qeyd edək ki, müharibə başlayandan bəri Azərbaycanın Ukraynaya humanitar yardımı davamlı hal alıb. Respublikamızdan dost ölkəyə yardımlar müxtəlif istiqamətlərdə göstərilir. Xatırladaq ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında ölkəmizdə Ukraynadan olan uşaqlar üçün reabilitasiya kursları təşkil olunub. Həmin proqramlar çərçivəsində Ukraynadan olan uşaqlar həm respublikamızın ayrı-ayrı guşələrini gəziblər, həm də onlar sosial reabilitasiya proqramı çərçivəsində art-terapiya və peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyalarına cəlb ediliblər.

O cümlədən Azərbaycan Ukraynanın kritik durumda olan enerji təchizatına dəstək verir. İndiyədək respublikamızdan Ukraynaya bir neçə dəfə enerji avadanlığı yüklənmiş humanitar yardım karvanları yola salınıb. Bu yardımlar Ukrayna üçün çətin dövrdə əsl həmrəyliyin parlaq nümunəsidir.

Suriyaya dəstək Azərbaycanın humanitar missiyasının daha bir ifadəsidir. Artıq Suriyada yeni dönəm başlayıb. Ölkənin keçid dövrü hakimiyyəti Bəşər Əsəd rejiminin kədərli miraslarının aradan qaldırılması kimi ağır bir prosesi irəli aparmaqdadır. Çətinliklə də olsa, uğurlar qazanılır. Respublikamız Suriyaya dəstəyini ilk ifadə edən dövlətlər sırasında yer alır. Bu dəstək müxtəlif istiqamətləri əhatə edir. O cümlədən, ölkəmizdən Suriyaya qaz ixracına da start verilib.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev konfransdakı çıxışında bildirib ki, ötən 15 il ərzində AIDA Azərbaycanın beynəlxalq humanitar yardım və inkişaf əməkdaşlığında mühüm rol oynayıb. “Bu müddətdə Azərbaycanın yardım fəaliyyətinin coğrafiyası genişlənib. 140-dan çox ölkə müxtəlif formalarda Azərbaycanın beynəlxalq yardımından faydalanıb. Azərbaycan Afrikanın kiçik ada dövlətlərinə dəstək göstərib. Həmçinin Afrikada qarşısı alına bilən korluqla mübarizə təşəbbüslərində iştirak edib. Bundan əlavə, Kiçik Ada Dövlətlərinin mədəni irsinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinə yardım göstərib”, - deyə XİN rəsmisi vurğulayıb.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da özünün geniş əhatə dairəsinə malik olan fəaliyyəti ilə Azərbaycanın sərhədləri aşan humanitar diplomatiyasına güclü impuls verir. Fondun Mehriban xanım Əliyevanın təşəbbüsü ilə uğurla həyata keçirdiyi humanitar missiya həm ölkəmizdə həssas qruplardan olan insanları, qayğıya ehtiyac duyan uşaqları, həm də Azərbaycanın hüdudlarından kənarda yerləşən və çətinliklərlə üzləşən ölkələri əhatə edir. Xüsusi olaraq vurğulamaq istərdik ki, Fondun vitse-prezidenti Leyla Əliyeva indiyədək qurumun humanitar missiya həyata keçirdiyi ayrı-ayrı Afrika ölkələrin səfərdə olub və layihələrin icra vəziyyəti ilə şəxsən maraqlanıb.

### COVID pandemiyası dövründə Azərbaycan 80 ölkəyə yardım göstərib

2019-cu ilin sonlarında Çində başlayan və qısa müddətdə Azərbaycan da daxil olmaqla dünyanın 200-dək ölkəsinə yayılan yeni növ koronavirus (COVİD) pandemiyasının həyatımıza gətirdiyi çətinliklər yaddaşlarda acı xatirələr buraxıb. Qlobal səhiyyə böhranı yaşandığı həmin dövrdə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, çoxlu sayda ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Təbii ki, bu, ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Prezident İlham Əliyev 2019-cu ildə kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusi diqqətin ayrılmalı olduğunu gündəmə gətirib. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının sammiti zamanı inkişaf edən kiçik ada dövlətlərinin və Afrika ölkələrinin pandemiyadan sonra daha yaxşı bərpası üçün Qlobal Çağırışlar elan edib və ilk donor olaraq ölkəmiz bu məqsədlə hər iki Çağırışa vəsait ayırıb. “2020-ci ildən bu yana ikitərəfli və çoxtərəfli yardım vasitəsilə təxminən 400 milyon ABŞ dolları ayrılıb. Bizim fəaliyyətimiz müxtəlif formalar alıb. COVID pandemiyası dövründə Azərbaycan 80 ölkəyə yardım göstərib”, - deyə Ceyhun Bayramov konfransdakı çıxışında bildirib. Nazirin sözlərinə görə, Afrikada əməkdaşlığımıza Ebola epidemiyasına cavab tədbirləri və Qarşısı Alına Bilən Korluqla Mübarizə Alyansına dəstək daxil idi. Bu təşəbbüs vasitəsilə 900 mindən çox insan göz müayinəsindən keçib, yerli tibb mütəxəssislərinin potensialının artırılması ilə yanaşı, 150 mindən çox katarakta əməliyyatı aparılıb.

### Çətin sınaqlarda möhkəmlənən qonşuluq

Dilimizdə gözəl bir kəlam var: Yaxın qonşu uzaq qohumdan yaxşıdır. Bunun təsdiqini həmçinin Azərbaycanın humanitar diplomatiyasının timsalında da aydın görmək mümkündür. O cümlədən ölkəmizin qonşuluq münasibətləri ağır sınaqlarda möhkəmlənib. Bu baxımdan Azərbaycanın qonşu dövlətlərin -Türkiyənin və İranın çətin günlərində bu ölkələrə ilk olaraq yardım göstərməsi təqdirəlayiqdir.




2023-cü il fevralın 6-da Türkiyə dəhşətli zəlzələ xəbəri ilə silkələndi. Episentiri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ qardaş ölkənin tarixində ən faciəvi səhifələrdən biridir. Təbii fəlakətin miqyası kifayət qədər böyük olub - dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb. Verilən məlumata görə, 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub.

Həmin faciə zamanı Azərbaycan Türkiyəni tək buraxmadı. Dövlətimizin başçısının bildirdiyi kimi, Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Həmin çətin günlərdə Prezident İlham Əliyevin xüsusi tapşırıqları əsasında respublikamızdan dövlət xətti ilə bir neçə dəfə qardaş ölkəyə humanitar yük dolu karvanlar yola salındı, eyni zamanda, xilasedicilər və həkimlər göndərildi.

Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola saldı. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi (RİİB) Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi məqsədi ilə Azərbaycan vətəndaşlarına çağırışına qoşularaq qardaş ölkəyə dəstək məqsədilə humanitar yardım kampaniyasına start verdi. Deyə bilərik ki, Heydər Əliyev Fondunun çağırışı ilə bu kampaniyaya bütün Azərbaycan cəmiyyəti qoşuldu.

Kahramanmaraşda Prezident İlham Əliyevin tapşırığı əsasında “Azərbaycan” məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Rəcəb Tayyib Ərdoğan “Azərbaycan” məhəlləsini iki qardaş ölkənin ən mötəbər layihələrindən biri, qürur tablomuz kimi səciyyələndirib.

Azərbaycanla İran da qonşu dövlətlərdirlər. Bu, bir taledir və xalqlarımız da bu taledən məmnundurlar. Azərbaycanın müharibə ilə əlaqədar İranın üzləşdiyi çətinliklərə həssas yanaşması da ölkəmizin xoş məramə əsaslanan qonşuluq siyasətinə verdiyi böyük önəmin daha bir ifadəsidir. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib.

Bu çətin günlərdə qonşu İrana ilk yardım əli uzadan ölkə də Azərbaycan olub. Belə ki, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq bir neçə dəfə qonşu ölkəyə humanitar yardım karvanları yola salınıb Azərbaycan eyni zamanda üçüncü ölkələrin İrana ünvanladığı yardımların respublikamızın ərazisindən daşınmasına şərait yaradıb. Öz növbəsində İran rəhbərliyi ölkəmizin bu qəbildən olan səmimi davranışlarını təqdirlə qarşılayıb.




### “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı

Öz siyasətində daim humanizm prinsiplərindən çıxış edən Azərbaycanın dövlət başçısının daha əvvəl İslam Əməkdaşlıq Təşkilatına (İƏT) və Qoşulmama Hərəkatına (QH) üzv dövlətlərin vətəndaşlarının respublikamızın ali təhsil müəssisələrində təhsil almaları üçün təsis etdiyi qrant proqramları ölkəmizinn beynəlxalq nüfuzunun artmasına, İƏTvə QH çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə, dost və tərəfdaş ölkələrdə insan resurslarının inkişafına nəzərəçarpan töhfələr verib. Bu uğurlu təşəbbüsün davamı kimi bəhs olunan təhsil qrantı proqramlarının uğurlu təcrübəsi əsasında xarici ölkə vətəndaşlarına təhsil qrantının verilməsi istiqamətində növbəti mərhələyə keçid edilib. Belə ki. Prezident İlham Əliyevin 8 iyul 2023-cü il tarixində imzaladığı müvafiq Sərəncam əsasında “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı təsis edilib. Sərəncamda vurğulanır ki, xarici ölkə vətəndaşlarına təhsil qrantının verilməsi istiqamətində növbəti mərhələyə keçid beynəlxalq sülh və əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artmasına, beynəlmiləlləşməsinə və ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin coğrafi müxtəlifliyinin genişlənməsinə də müsbət təsir edəcəkdir.

Bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycanın ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub. Sözügedən proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşları üçün təhsil qrantı ayrılır . Sərəncama uyğun olaraq proqramın icrası Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə təmin edilir.

“Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramının 2025-2026-cı tədris ili üzrə namizədlərin seçimi proqrama müraciət ünvanlamış 64 ölkədən yüzlərlə namizəd sırasından 51 ölkə üzrə edilib və 100 nəfər təhsil qrantına layiq görülüb. Seçilmiş namizədlər əsasən ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Naxçıvan Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Xəzər Universiteti olmaqla Azərbaycanın 9 ali təhsil müəssisəsində müxtəlif təhsil səviyyələrində təhsil alırlar.

Ceyhun Bayramov çıxışında Azərbaycan inkişaf etdikcə və dövlət institutlarını möhkəmləndirdikcə, fərdi xeyriyyəçilik ənənəsinin tədricən humanitar yardım və inkişaf tərəfdaşlığını əhatə edən sistemli milli siyasətə çevrildiyinə vurğu edib. Nazir bildirib ki, bu davamlılıq xüsusilə təhsil sahəsində özünü aydın göstərir. XX əsrin ikinci yarısında Asiya, Afrika və Latın Amerikasından on minlərlə tələbə Azərbaycanın universitetlərində təhsil alıb. Bu gün həmin ənənə “Heydər Əliyev Beynəlxalq Təhsil Qrantı” proqramı, İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələrdən olan tələbələr üçün proqramlar, eləcə də xarici diplomatlar üçün təlim proqramları vasitəsilə davam etdirilir. XİN rəsmisinin məlumatına görə, ümumilikdə 120-dən çox ölkədən olan tələbələr Azərbaycanda təhsil alıb və ya hazırda təhsil almaqdadır.

Yeri gəlmişkən, AIDA-nın yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfransda “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı çərçivəsində ölkəmizdə təhsil alan və akademik göstəriciləri ilə fərqlənən xarici tələbələr sertifikatlarla təltif olunublar.

### AİDA-nın fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir

Azərbaycanı təmsil edən AİDA-nın fəaliyyəti beynəlxalq səviyyədə təqdir olunur və yüksək qiymətləndirilir. Konfransa qatılan xarici qonaqlar qurumun, bütövlükdə ölkəmizin xoş məramə əsaslanan siyasəti ilə bağlı fikirlər ifadə ediblər. “Prezident İlham Əliyevə, eləcə də Azərbaycan hökumətinə və xalqına uzaqgörənliklərinə, dostluqlarına və beynəlxalq inkişaf əməkdaşlığına davamlı sadiqliklərinə görə, səmimi minnətdarlığımı bildirirəm”. Bu sözləri Somali Federativ Respublikasının ölkəmizdəki səfiri Abdinur Dahir Fidou konfrans çərçivəsində keçirilən “Dayanıqlı inkişaf və səmərəli humanitar yardım naminə tərəfdaşlıqlar” mövzusunda panel müzakirəsində söyləyib.

O bildirib ki, son 15 il ərzində AIDA Azərbaycanın beynəlxalq əməkdaşlığa sadiqliyinin mühüm təzahürünə çevrilib. “Mən, həmçinin Azərbaycanı beynəlxalq inkişaf əməkdaşlığına artan töhfəsinə, əməkdaşlıq üçün praktiki imkanları müəyyənləşdirə biləcəyi bir platforma təmin etdiyinə görə təqdir edirəm.

AIDA həmrəylik, qarşılıqlı hörmət və daha yaxşı gələcəyə olan ortaq inam üzərində qurulmuş tərəfdaşlığın dəyərini əks etdirir. Somali üçün bu dostluq və tərəfdaşlıq ruhu dərin rəğbətlə qarşılanır”, - deyə səfir əlavə edib.

*Mübariz ABDULLAYEV*



# Mən fəxr edirəm ki, Heydər Əliyev azərbaycanlıdır!

Heydər Əliyevi digər siyasi xadimlərlə müqayisə etmək cəhdlərinin tez-tez şahidi oluruq. Bizim fikrimizcə, Heydər Əliyev tamamilə unikal şəxsiyyətdir və onunla bağlı aparılan tarixi paralellər həmişə dəqiq deyil. Gəlin onlardan bəzilərinə nəzər salaq.

Məsələn, Heydər Əliyevin "Görkəmli insanların həyatı" silsiləsində nəşr olunmuş bioqrafiyasında müəllif onu Şarl de Qoll ilə müqayisə edir. Bəli, həqiqətən də hər iki dövlət xadimi 67 yaşında yenidən hakimiyyətə qayıtmışdı. Ancaq burada mühüm bir fərq var. Şarl de Qoll hakimiyyətə Fransanın Kolombe kəndində keçirdiyi beş illik sakit həyatından sonra qayıtmışdı. Həmin dövrdə o, məşhur "Hərbi memuarlar" əsəri üzərində çalışırdı. Heydər Əliyev isə Yevgeni Primakovun təbirincə desək, "çox ağır infarkt"dan, o dövrün sovet rəhbərliyinin təqiblərinə məruz qaldıqdan sonra siyasətə qayıtdı. Onun sakit və qayğısız keçən beş ili olmamışdı.

Bəzən Heydər Əliyevi Uinston Çörçill ilə də müqayisə edirlər. Uinston Çörçill Marlboro hersoqlarının ailə malikanəsində dünyaya gəlmişdi. Onun atası - Marlboro hersoqunun oğlu lord Rendolf Çörçill tanınmış siyasətçi və İcmalar Palatasının üzvü idi. Anası isə varlı amerikalı iş adamının ailəsində doğulmuşdu.

Heydər Əliyev isə keçmiş imperiyanın ucqar bölgəsində, sadə bir zəhmətkeş ailəsində dünyaya göz açmışdı. Bu nəhəng dövlətdə sayca böyük olmayan bir millətin nümayəndəsi kimi o, yalnız şəxsi keyfiyyətləri, bacarığı və iradəsi sayəsində 53 yaşında həmin dövləti idarə edən şəxslərdən biri oldu.

Üstəlik, Uinston Çörçill minillik dövlətçilik ənənələrinə malik böyük bir dövləti xilas edirdi. Heydər Əliyev isə müstəqilliyinə təzəcə qovuşmuş bir dövləti həm xilas etdi, həm də tamamilə yenidən qurdu. Fikrimizcə, fərqlər kifayət qədər aşkardır.

"Brejnevin dəfnindən sonra, - deyə Heydər Əliyev xatırlayırdı, - Andropovla təkbətək görüşdük. O mənə dedi: "Sənə ehtiyacım var, istəyirəm ki, Moskvada işə başlayasan". Mən, əvvəllər Brejnevə dediyim kimi, Yuri Vladimiroviçə də imtina cavabı verdim. Özümü Azərbaycansız təsəvvür edə bilmirdim, doğma və sevimli yurdumdan ayrılmaq istəmirdim. Lakin Andropov etiraz edərək təbəssümlə dedi: "Azərbaycan artıq sənə darlıq edir". Mən yenidən etiraz edəndə isə o, bu dəfə daha qətiyyətlə təkid etdi: "Sən bütün İttifaq üçün lazımsan. Azərbaycan artıq sənin üçün kiçikdir, Heydər."

Oxşar sözləri Makedoniya hökmdarı II Filipp vaxtilə oğlu Makedoniyalı İsgəndərə demişdi. Plutarxın yazdığına görə, Filipp belə deyibmiş: "Özünə layiq bir səltənət axtar, oğlum, çünki Makedoniya sənin üçün həddindən artıq kiçikdir!"

İsgəndər miqyasına görə nəhəng bir imperiya yaratdı. Lakin bu imperiya onun cəmi 32 yaşında vəfat etməsindən dərhal sonra dağılmağa başladı. Heydər Əliyevin isə bütün İttifaq miqyasında qurub-yaratdığı sistem dağılmırdı. İlk növbədə ona nəqliyyat sahəsi həvalə olundu ki, burada qayda-qanun yaratsın. Bundan başqa, onun məsuliyyət dairəsinə maşınqayırma, yüngül sənaye, mədəniyyət və təhsil sahələri də daxil idi.

Heydər Əliyev bu vəzifələrlə yanaşı, Sovet İttifaqının İslam dünyası ölkələri ilə əlaqələrini də kurasiya edir, mühüm diplomatik missiyalarla Misir, Liviya, Pakistan, İordaniya və İraqa səfərlər edirdi. Ona etibar edilən fəaliyyət istiqamətlərinin genişliyi bu şəxsiyyətin qeyri-adi potensialını və çoxşaxəli idarəçilik bacarığını aydın şəkildə nümayiş etdirir.

SSRİ Nazirlər Soveti sədrinin müavini Vladimir Qusev həmin illəri belə xatırlayırdı: "Mən onu, necə deyərlər, iş başında görmüşəm. O, müstəsna təşkilatçılıq qabiliyyətinə malik insan idi. Tapşırıqlarının icrasına görə çox ciddi tələbkarlıq göstərirdi. Bu gün hər addımda rast gəldiyimiz nəzarətsizlik məni özümdən çıxarır. Heydər Əliyevicdə isə belə hallara yer yox idi. Baykal-Amur Magistralının inşaatçıları bu gün də Heydər Əliyevin onlardan necə ciddi tələb etdiyini xatırlayırlar. Bəzi rəhbərlərdən fərqli olaraq, o, kabinetində oturmağı sevmirdi. Müntəzəm olaraq bölgələrə gedir, işlərin gedişi ilə yerində tanış olurdu. Fəhlələrlə, mütəxəssislərlə birbaşa ünsiyyət qurmaq, vəziyyəti yerində öyrənmək Əliyevin iş üslubunun ayrılmaz hissəsi idi".

Heydər Əliyevin iş üslubu haqqında onun nəqliyyat məsələləri üzrə köməkçisi Vladimir Sergeyeviç Uxov da maraqlı xatirələrini bölüşüb: "Volqada, qəzaya uğramış "Aleksandr Suvorov" gəmisinin yanında (1983-cü ildə "Aleksandr Suvorov" sərnişin teploxodu tam sürətlə körpünün gəmi keçidi üçün nəzərdə tutulmayan aşırımına çırpılmış, nəticədə çoxsaylı insan tələfatı ilə nəticələnən faciə baş vermişdi. - müəllifin qeydi) mən bir daha anladım ki, onun xarakteri böhranlı vəziyyətlərdə daha dolğun şəkildə üzə çıxır. Elə məqamlarda ki, insan iradəsini, hisslərini və düşüncəsini bir yumruqda toparlayıb hərəkətə keçməlidir - ağılla, sərt və qətiyyətlə. Hətta mənə elə gəlir ki, sakit və adi iş şəraitində Heydər Əliyev bir qədər sıxılırdı. Belə dövrlərdə onun tükənməz enerjisi çıxış yolu axtarır və o, özünü axşam saat doqquz-onadək fasiləsiz işə həsr edirdi".

Bu iş üslubu ömrünün son günlərinədək dəyişməz qaldı. Vladimir Qusev fikrini belə davam etdirirdi: "O, səksən yaşınadək öz dinamizmini qoruyub saxladı və ölkəyə inamla rəhbərlik etdi. Azərbaycan iqtisadiyyatının bir sıra strateji sahələri dövlətin nəzarətində saxlanıldı ki, bu da ölkənin səmərəli idarə olunmasına imkan verdi. Belə idarəetmə vasitələri (rıçaqları) olmadan dövləti idarə etmək mümkün deyil. Bütün bunlar mənə heç bir tərif və ya yaltaqlıq məqsədi güdmədən deməyə əsas verir: O, həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın həqiqətən böyük miqyaslı dövlət və siyasi xadimi idi".

Tarixi paralellər mövzusuna qayıdaraq qeyd etmək olar ki, bəziləri Napoleon Bonapartı misal gətirə bilər. Axı o da böyük Fransanın ucqarından idi və etnik fransız sayılmırdı. İlk baxışdan müəyyən oxşarlıqlar görünə bilər. Bəli, bununla razılaşmaq olar. Lakin bəşər tarixinin ən böyük şəxsiyyətlərindən biri hesab olunan Napoleonu böyük siyasət sonda məhv etdi. Eyni tale Heydər Əliyevi də gözləyə bilərdi.

Heydər Əliyevin istefasından sonra Miçurinski prospektində yerləşən xəstəxanada onunla görüşünü SSRİ Nazirlər Soveti sədrinin müavini Yuri Petroviç Batalin belə xatırlayırdı: "Həmişə olduğu kimi, səmimi salamlaşdıq, söhbətə başladıq. O vaxt Heydər Əliyeviçin səhhəti yaxşı görünmürdü - xeyli arıqlamış, olduqca taqətdən düşmüş təsiri bağışlayırdı. Bir qədər kənara çəkilib əyləşdik. O zaman o, yaddaşımdan heç vaxt silinməyən bir cümlə dedi. Sözbəsöz təkrarlaya bilmərəm, amma mənası belə idi: "Sonda məni məhv edə bilmədilər. Sağ qala bildim. İndi isə bu vəziyyətdən də çıxacağam."

Və o, bu sınaqdan qalib çıxdı. Qalib çıxmaqla yanaşı, hamıya dövlətin necə idarə olunmalı olduğunu da öz nümunəsi ilə göstərdi. General Vaqif Axundov xatırlayırdı: "1993-cü ildən sonrakı bütün illər ərzində O, bir dəfə də olsun məzuniyyətə çıxmadı. Gündəlik iş rejimini də heç vaxt dəyişmədi. Səhər saat 8-də səhər yeməyi yeyirdi, saat 10-a yaxın işə gəlirdi. Nahar etmirdi. Bütün günü görüşlər, söhbətlər, sənədlər, telefon danışıqları və məktublarla keçirdi".

Sovet və Rusiya jurnalisti Viktor Andriyanov isə 2002-ci ildə Heydər Əliyevin Rusiya Federasiyasına səfərini belə təsvir edir: "Səfər artıq başa çatmaq üzrə idi. Bu, son dərəcə gərgin keçən üç günün yekun tədbiri idi və geniş mətbuat konfransından dərhal sonra keçirilirdi. Prezidentin bir qədər arıq çöhrəsində zərrə qədər də yorğunluq hiss olunmurdu. Adam heyrətlənirdi ki, səksən yaşına az qalmış bir insan belə ağır iş yükünə necə tab gətirə bilir".

Dövlətin rəhbər vəzifələrində çalışan hər bir insan üzərinə düşən ağır məsuliyyətin öhdəsindən layiqincə gəlirsə, xalq özünü xoşbəxt saya bilər. Dövləti idarə etmək böyük zəhmət, yüksək məsuliyyət və fədakarlıq tələb edir. Xüsusilə vurğulamaq lazımdır ki, xatirələrdən də məlum olduğu kimi, Heydər Əliyev bu yüksək vəzifələrin heç birinə can atmamış, ona edilən təkliflərin hər birindən əvvəlcə imtina etmişdir.

Fransız yazıçısı Stendalın belə bir fikri var: "Əgər insan nazir olmaq üçün həddindən artıq can atırsa, sonda nazir olacaq və məhz bu da onun cəzası olacaq".

Sovet və Azərbaycan xalqları üçün böyük xoşbəxtlik ondan ibarətdir ki, Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və nəhayət, müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi ən yüksək məqamları vəzifə hərisi olan biri deyil, ömrünün hər anını Vətəninə və xalqına xidmətə həsr edən Heydər Əliyev tutmuşdur.

Yuxarıda deyilənlərdən də göründüyü kimi, mənim üçün Heydər Əliyevlə işləmək və ünsiyyətdə olmaq imkanı qazanmış insanların xatirələri hər zaman xüsusi maraq doğurub. Hələ uşaqlıq illərində dayım Aslan Məmmədlinin Bakı Dövlət Universitetində tələbə olarkən Heydər Əliyevlə görüşü barədə xatirələrini dinləmişəm. 2003-cü ilin dekabrında Bakı Slavyan Universitetinin professoru Aslan Məmmədli həmin görüşlə bağlı universitetin "Tələbə dünyası" qəzetində məqalə dərc etdirmişdi. Hesab edirəm ki, həmin kiçik yazını burada heç bir ixtisar etmədən təqdim etmək yerinə düşər:

"Heydər Əliyevlə 1977-ci ildə görüşmüşdüm. Həmin vaxt mən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi idim və əla qiymətlərlə oxuyurdum. İkinci kurs tələbəsi olmağıma baxmayaraq, məni adlı təqaüdə təqdim etdilər. Halbuki o dövrdə qüvvədə olan qaydalara əsasən, belə təqaüdlər yalnız üçüncü kursdan etibarən verilirdi. Bu məsələ ən yüksək səviyyədə - nazirlikdə və Azərbaycan KP MK-nın şöbələrindən birində həll olunurdu. O dövrün rəhbərliyinin məsələyə obyektiv yanaşmasının göstəricisi o idi ki, universitet rektorunun təklifi dəstəkləndi. Sonra məni və daha bir neçə adlı təqaüdçünü Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə görüşə apardılar. Aydın idi ki, bizimlə görüşmək qərarını şəxsən Heydər Əliyev vermişdi. Çünki onun maraq göstərmədiyi heç bir görüşü heç kəs ona təklif edə bilməzdi.

Gənclərlə görüşlər bu insanın həyatında hər zaman xüsusi yer tuturdu. 1977-ci ilin yazında Heydər Əliyevlə indiki Azərbaycan Respublikası Nazirlər Kabinetinin binasında görüşmüşdük. Bizə elə gəldi ki, görüş çox tez keçdi. Sonradan məlum oldu ki, Heydər Əliyev bizimlə təxminən iki saat söhbət edibmiş. Hər şey o qədər təsirli idi ki, hamımız özümüzü xüsusi bir ruh yüksəkliyi içində hiss edirdik.

Qarşımızda hündürboylu, yaraşıqlı, qüvvətli, ağıllı və enerjili simaya malik bir insan dayanmışdı. Onun iri yaşıl gözlərində sanki hər kəsi anlayan dərin bir müdriklik oxunurdu. Hər birimizə elə gəlirdi ki, o, məhz səninlə danışır. Baxışlarımız qarşılaşanda isə aramızda tam qarşılıqlı anlaşmanın yarandığını hiss edirdik.

Həyatımda bu, atamdan sonra ikinci insan idi ki, kişinin leksikonunda "bacarmıram", "alınmayacaq", "bunu indiyədək heç kim bacarmayıb" kimi ifadələrin olmamalı olduğunu sarsılmaz daxili inamla söyləyirdi.

Nədənsə, həmin görüş məndə müxtəlif xalqların tarixində böyük yüksəliş və yenilikçilik dövrlərini - Napoleon müharibələrini, Rusiyadakı Pyotr islahatlarını xatırlatdı. Bu insanda elə bir güc, iradə, yüksək ruh və coşqu var idi ki, hamımız onun yaşadığı hisslərin təsiri altına düşmüşdük. Zaldakı ab-hava sanki elektriklənmişdi, Heydər Əliyevin mənəvi enerjisi hər birimizə sirayət etmişdi.

O, hamımıza hədiyyələr təqdim etdi. Mənə isə kitablar və radioqəbuledici bağışladı. Onunla vidalaşıb ayrılarkən hamımızın qəlbində böyük işlər görmək, ömrümüzün hər anını Vətənimizin rifahına həsr etmək arzusu yaranmışdı. Bu insanın 26 il əvvəl verdiyi mənəvi təkan bu gün də mənim üçün öz gücünü itirməyib.

Biz çox vaxt həyatı özümüz üçün ən dəyərli olan meyarlarla qiymətləndiririk. Mənim həyatımın ən gözəl dövrü tələbəlik illərim olub. Azərbaycan xalqının keçdiyi tarixi yola nəzər saldıqda Heydər Əliyevin ölkəmizdə təhsil və maarif sahəsində gördüyü işlərin əsl miqyasını daha aydın dərk edirəm.

Övladlarına yaxşı təhsil verməyi bacaran valideynlər özlərini xoşbəxt hesab edir, bununla valideynlik borclarını əsasən yerinə yetirdiklərini düşünürlər. Bu, həqiqətən də belədir. Heydər Əliyev uzun illər ərzində israrla çalışaraq azərbaycanlı gənclər üçün Sovet İttifaqının ən nüfuzlu ali məktəblərində, o cümlədən ən nadir ixtisaslar üzrə təhsil yeri ayrılmasına nail olurdu.

Bunun nəticəsində yüzlərlə azərbaycanlı respublikadan kənarda yüksək səviyyəli təhsil almaq imkanı qazanırdı. Eyni zamanda, Moskva, Leninqrad və Kiyevə təhsil almağa gedən gənclər burada qəbul müsabiqəsində iştirak etmədikləri üçün, Azərbaycanın ali məktəblərinə qəbulda, daha yumşaq rəqabət şəraitində, hər il yüzlərlə abituriyent müvəffəqiyyət qazanırdı. Beləliklə, XX əsrin sonlarına doğru Azərbaycanda, bir tərəfdən nadir ixtisaslar üzrə minlərlə yüksək ixtisaslı mütəxəssis yetişmişdi, digər tərəfdən isə ali təhsilli insanların sayı gözləniləndən xeyli, demək olar ki, iki dəfə çox idi.

Deyirlər ki, tək əldən səs çıxmaz. Dünyada belə hesab edirlər. Ancaq Azərbaycan xalqının tarixi bunun əksini sübut edir. Xalqımızın tarixində elə şəxsiyyətlər olub ki, təkbaşına böyük işlər görüblər, möcüzələr yaradıblar.

Uşaqlıqda elə düşünürdüm ki, bütün yaxşı insanlar azərbaycanlıdır. İnsan böyüdükcə ətrafında xoşagəlməz halların da az olmadığını görür. Elə insanlar var ki, onlara baxanda yaşamaq həvəsin azalır. Elələri də var ki, onları düşündükcə insanın böyük işlər görmək, mümkünsüz görünəni mümkün etmək arzusu yaranır.

Mən fəxr edirəm ki, Heydər Əliyev azərbaycanlıdır."

Bunu bir daha demək istəyirəm: Mən fəxr edirəm ki, Heydər Əliyev azərbaycanlıdır!



*Fərhad Hüseynov,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Özəl sektor-maliyyə təşkilatları arasında əməkdaşlıq platforması

## "Bakı Dayanıqlı Biznes Assambleyası 2026" iqlim fəaliyyəti ilə bağlı tərəfdaşlığı gücləndirir

Bakı Korporativ Dayanıqlılıq Forumunun yekun tədbiri olan "Təsir Dialoqu: Bakı Dayanıqlı Biznes Assambleyası 2026" iqlim fəaliyyəti ilə bağlı özəl sektor-maliyyə təşkilatları arasında əməkdaşlığın artırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində keçirilən Assambleya BMT Qlobal Sazişinin Azərbaycan Şəbəkəsinin tədbirində regionun aparıcı biznes liderlərini, siyasətçiləri, maliyyə institutlarını və beynəlxalq tərəfdaşları geniş qlobal iqlim gündəliyi yaratmaq barədə təşəbbüslərlə çıxış ediblər. Dialoqda BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibinin müavini Dmitri Mariyasin, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Dmitro Şlapaçenko və COP31-in İqlim üzrə Yüksəksəviyyəli Çempionunun xüsusi müşaviri Kris Mensah maliyyə institutlarının iqlim fəaliyyətindəki rolunu yüksək dəyərləndiriblər.

Assambleya Azərbaycanın və regionun biznes ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb. İştirakçılar COP29 Sədrliyinin, BMT Qlobal Sazişinin və onun Azərbaycandakı şəbəkəsinin özəl sektoru dayanıqlı inkişaf və iqlim fəaliyyəti istiqamətində səfərbər etməsini, eləcə də şirkətlərin öhdəliklərdən praktiki əməkdaşlığa və real icraya keçidi üçün platforma yaratmasını yüksək qiymətləndiriblər.

### Biznesin maliyyə resurslarına çıxışı üçün fürsət

Tədbirdə çıxış edən BMT Qlobal Sazişinin Azərbaycan üzrə ölkə nümayəndəsi Samir Məmmədov iqlim üzrə öhdəliklərdən praktiki icraya keçidi və Azərbaycanın iqlim və dayanıqlı inkişaf prioritetlərinin həyata keçirilməsində biznesin getdikcə artan roluna diqqət çəkib. Bildirib ki, 3-cü Bakı Dayanıqlı Biznes Assambleyası Azərbaycan və regionun özəl sektorunun iqlim keçidində rolunun gücləndirilməsi istiqamətində göstərilən səylərə töhfə vermək məqsədi daşıyır. Hazırda biznes, hökumət üzvləri, maliyyə sektoru və beynəlxalq tərəfdaşların birgə kommunikasiyasının qurulması hədəflənən prioritetlərə çatmağa imkan yaradacaq.Birgə fəaliyyət enerji, bankçılıq və maliyyə, sement və tikinti, telekommunikasiya və nəqliyyat sektorlarında özəl sektorun iştirakı üçün perspektivlər açacaq.

Digər çıxış edən natiqlər bildiriblər ki, iqtisadi-maliyyə qurumları ilə biznes icması arasında yaradılan əlaqələr özəl sektorun inkişafına, sahibkarlığın dəstəklənməsinə və qeyri-neft sektorunda "yaşıl investisiya" imkanlarının artırılmasına mühüm töhfə verir. Bu fəaliyyət sahibkarların qeyd edilən sahələrdə maliyyə resurslarına çıxış imkanlarının genişlənməsinə də səbəb ola bilər. İqlim fəaliyyəti ilə bağlı

Azərbaycanın 2 il əvvəl COP29-da təsis edilməsinə nail olduğu İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) imkanlarının, habelə "İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu"na ayrılan vəsaitlərin həcminin artırılması özəl sektorların "yaşıl" sənaye layihələri üçün ilkin kapital itkisinin kompensasiyasını da təmin edəcək. Eləcə də, regionun beynəlxalq səviyyədə qəbul edilən yaşıl enerji qovşağına və qlobal yaşıl enerji dəhlizlərinə çevrilməsi üçün "Sərhədlərarası bərpaolunan enerji sertifikatları"nın vahid tətbiqi beynəlxalq kapitalın dövlət-özəl tərəfdaşlığı vasitəsilə cəlb edilməsinə imkan verəcək. Nəticədə bu təşəbbüslər iqlim hədəflərinə çatmaqda dayanıqlı maliyyə mexanizmlərinin formalaşmasında mühüm rol oynayacaq.




### Əməkdaşlığın yeni gündəliyi - "yaşıl enerji" və "yaşıl maliyyə"...

Biznes Assambleyası ilə Azərbaycan arasında əməkdaşlığın müasir gündəliyində KOB-ların inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, "yaşıl iqtisadiyyat"ın təşviqi məqsədilə korporativ və fərdi müştərilərin ehtiyaclarının kreditləşdirilməsi və digər prioritetlər daxildir. Həmçinin, işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək və müasir sənaye-emal zəncirinin qurulmasından bankın donorluğu istisna olunmur. SOCAR-la "yaşıl enerji" üzrə layihələrin həyata keçirilməsi də danışıqlar mövzusundadır.

Assambleya üzvləri ölkəmizlə yeni əməkdaşlıq mərhələsində "yaşıl maliyyələşmə" və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla "yaşıl layihələr" üzrə müqavilə imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanların səfərbər ediləcəyini də bildirib. Bu çərçivəyə əsasən, Azərbaycanın "yaşıl maliyyə" üzrə investisiya prioritetlərinə Assambleya platformasımda təmsil olunan maliyyə qurumlarının dəstək verəcəyi ehtimal olunur.

Qeyd edək ki, Assambleyanın yekununda platformanın davam etdirilməsinə biznes ictimaiyyəti tərəfindən böyük marağın olduğu bildirilib. Azərbaycan və regional biznes nümayəndələri Bakı İqlim Fəaliyyəti Həftəsinin 2027-ci ildə də regional platforma kimi keçirilməsi və növbəti tədbir çərçivəsində 4-cü Bakı Dayanıqlı Biznes Assambleyasının təşkil olunması ilə bağlı təkliflər səsləndiriblər.

*E.CƏFƏRLİ*

# Çində Azərbaycanın təqdimatı

## Beynəlxalq CIFTIS sərgisində ölkəmizin investisiya və biznes potensialı nümayiş etdirilir

Azərbaycan Pekində keçirilən Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisində (CIFTIS) iştirak edir. "Qlobal xidmətlər, ortaq rifah" devizi altında keçirilən bu ilki sərgidə 90-dan çox ölkədən 1300 şirkət, o cümlədən "Fortune Global 500" siyahısından 473 firma, habelə beynəlxalq təşkilatlar iştirak edir. Sentyabrın 13-dək davam edəcək sərgi çərçivəsində 200-ə yaxın forum, konfrans, digər biznes tədbiri keçiriləcək. Sərgidə informasiya və kommunikasiya, maliyyə xidmətləri və texnologiyalar, rəqəmsal və intellektual səhiyyə kimi sahələri əhatə edən 100-dən çox yeni məhsul və xidmət təqdim olunacaq. Əsas sərgi sahəsində süni intellekt, böyük dil modelləri və ağıllı agentlər də daxil olmaqla, xidmət ticarətinin 12 kateqoriyasını əhatə edən 140-dan çox innovasiya nümunəsi nümayiş olunur.

CIFTIS müxtəlif ölkələr arasında əlaqələri gücləndirmək və ticarət xidmətlərini genişləndirmək üçün vacib bir vasitədir. Bu platforma dünyanın müxtəlif ölkələri üçün yeni imkanlar və əməkdaşlıq yolları açır. Çinin Kommersiya Nazirliyinin məlumatına görə ilin ilk yarısında ölkənin xidmətlər ticarətinin həcmi 8,3 faiz artaraq 3,78 trilyon yuana (təxminən 563 milyard dolları) çatıb. CIFTIS Çin şirkətlərinin qloballaşmasından başqa, xarici şirkətlərin də Çin bazarına inamı ildən-ilə artır.




### Azərbaycan şirkətləri vahid ölkə stendində

İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) və Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə qurulan vahid ölkə stendində müxtəlif xidmətlər sahələrini təmsil edən 10 şirkətin xidmətləri təqdim olunur, milli brendlərimiz nümayiş etdirilir. Həmçinin, Azərbaycn pavilyonunda aqrar-sənaye, kənd təsərrüfatı, turizm, innovasiya, "yaşıl enerji" və digər sahələrdə ölkəmizin potensialını əks etdirən təşviqedici materillar da yer alır. Azərbaycan pavilyonunda əks etdirilən videoçarxlar, əyani materiallar və müxtəlif inforqrafikalar ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, o cümlədən potensial investisiya layihələri haqqında tədbirdə iştirak edən xarici dövlət və biznes icmasında zəngin təəssürat yaradır.

Stenddə ölkəmizdə investorlara göstərilən xidmətlər və dəstək mexanizmləri, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, Ələt Azad İqtisadi Zonasında və sənaye parklarında investorlar üçün yaradılan münbit şərait və təklif olunan imtiyazlar haqqında məlumatlar da yer alıb. "Made in Azerbaijan" stendində sərgi ziyarətçilərinə Azərbaycan şirkətlərinin istehsal etdikləri şərab brendi və digər alkoqollu və alkoqolsuz içkilər, qənnadı məmulatları, fındıq, nar şirəsi, konservlər və s. məhsullar nümayiş olunur. Stenddə həmçinin Çindəki Ticarət evlərində nümayiş olunan yerli məhsullarımız da yer alıb. Qeyd edək ki, indiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycan Ticarət evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib. Ticarət evləri ölkəmizdə istehsal edilən qida və içki sənayesinə aid 50-yə yaxın məhsulun nümayiş olunması, milli ixrac qabiliyyətinin imkanlarının təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir.




### Azərbaycan-Çin iqtisadi əməkdaşlığının mühüm platforması

"Invest in Azerbaijan" ekspozisiya bölməsində ziyarətçilərə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Dövlət Neft Fondunun (DNF) fəaliyyət istiqamətləri barədə məlumatlar, vizual və çap materialları da təqdim olunur. Bununla yanaşı, Azərbaycan-Çin iqtisadi əməkdaşlığının mühüm platforması kimi Çində fəaliyyət göstərən Azərbaycan Ticarət evləri xüsusi ziyarətçi kütləsi toplamaqdadır.

Stend Azərbaycanın beynəlxalq arenada xidmətlərini tanıtmaq və yeni əməkdaşlıq imkanları yaratmaq məqsədi ilə qurulub. Azərbaycan bu mühüm platformada ardıcıl 7 ildir ki, iştirak edir və xidmətlər sektorundakı uğurlarını və potensialını nümayiş etdirir.

### Çin-Azərbaycan əlaqələrində yeni dövr

Sərgidə Azərbaycan nümayəndə heyəti və biznes icması ilə Çinin iqtisadi-ticari qurumlarının əməkdaşları arasında keçirilən görüşlər faydalı müzakirələrlə və mühüm anlaşmalarla yadda qalıb. Bildirilib ki, investisiya qanunvericiliyi təkmilləşdirilir və xarici investorlara münasibət müsbət istiqamətdə dəyişir. Bu amillər dünyanın bir çox şirkətləri kimi, Çin şirkətləri üçün də Azərbaycanın investisiya bazarını cəlbedici edir. Çin şirkətləri Azərbaycanın əlverişli coğrafi mövqeyi, sabit iqtisadi mühiti və geniş potensialı sayəsində ölkəmizə böyük maraq göstərir. Energetika, nəqliyyat, tikinti və informasiya texnologiyaları kimi sahələrdə Çin investisiyaları Azərbaycan iqtisadiyyatının diversifikasiyası və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verir.

Beləliklə, Pekində keçirilən Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisi Azərbaycanın investisiya və ticarət imkanlarını tanıtmaq, Çin bazarında mövqelərimizi gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün yeni fürsətlər yaradır. Azərbaycan məhsullarının daha geniş təqdimatına və ixrac imkanlarının genişləndirilməsinə səbəb olacaq.

*E.CƏFƏRLİ*

# "Moody`s": Azərbaycan bankları və şirkətləri geosiyasi risklərə qarşı dayanıqlıdır




Azərbaycan bankları və şirkətləri Rusiya ilə əlaqələrin məhdudluğu, neft qiymətlərinin yüksək olması və milli valyutanın sabitliyi sayəsində geosiyasi risklərə qarşı yüksək dayanıqlılıq nümayiş etdirir.

Bu barədə "Report" "Moody`s" beynəlxalq reytinq agentliyinə istinadən xəbər verir.

Agentliyin qiymətləndirmələrinə görə, 2022-ci ildə başlayan güclü iqtisadi artım, şaxələndirmə və ticarət axınlarının yönləndirilməsi fonunda Mərkəzi Asiya və Qafqaz ölkələrinin maliyyə və korporativ sektorları üçün fəaliyyət şərtləri əlverişli olaraq qalır.

"Mərkəzi Asiya və Qafqaz ölkələrinin bank sistemləri əhəmiyyətli kapital və likvidlik ehtiyatına malikdir, reytinq verdiyimiz şirkətlərin əksəriyyəti isə orta səviyyəli borc yükünə malikdir və şokların udulması üçün böyük likvidlik ehtiyatlarını qoruyub saxlayır", - "Moody`s" qeyd edir.

Enerji daşıyıcılarının yüksək qiymətləri neft ixrac edən ölkələrin, o cümlədən Azərbaycan ("Baa3", proqnoz - "sabit") və Qazaxıstanın büdcə mövqelərinə müsbət təsir göstərir.

"Biz həmçinin tənzimləmənin sərtləşdirilməsi hesabına bankların göstəricilərinin dəstəklənəcəyini gözləyirik. Qazaxıstan və Azərbaycanda əsasən yerli bankların aktiv olduğu iqtisadiyyatın qeyri-neft sektorunun davamlı artımı dövlətin diversifikasiya tədbirləri ilə daha da gücləndirilir ki, bu da bank fəaliyyətini stimullaşdırır. Bu isə tənzimləmənin sərtləşdirilməsi ilə yanaşı, bank sektorunda güclü nəticələrə: yüksək gəlirliliyə, kredit portfelinin keyfiyyətinin yaxşılaşmasına və sistem risklərini azaldan etibarlı kapital və likvidlik buferlərinə gətirib çıxarıb", - "Moody`s"in məlumatında bildirilir.

Agentlik vurğulayıb ki, Azərbaycan bankları kapital axını və valyuta məzənnəsinin dəyişkənliyi risklərinə daha az məruz qalır, çünki manat de-fakto ABŞ dollarına bağlıdır. Bundan başqa, ölkənin bank sistemi yüksək daxili likvidliyə, qeyri-neft sektorunda dayanıqlı göstəricilərə, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində dövlət tədbirlərinə, həmçinin etibarlı kapital buferlərinə əsaslanır.

Bununla yanaşı, "Moody`s"in analitikləri qeyd edirlər ki, daha az əlverişli xarici konyuktura şəraitində bəzi Azərbaycan banklarının xarici maliyyələşdirmə cəlb etmək planları məhdudlaşa bilər. Lakin ümumilikdə milli maliyyə sisteminin sabitliyi və korporativ sektorun mötədil borc yükü ölkəni xarici şoklardan səmərəli şəkildə qoruyur.

# YAP əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazanıb




Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Zaqatala rayon təşkilatının XII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynadığını vurğulayıb. F.Ramazanov partiyanın cəmiyyətin böyük etimadını qazandığını və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsinə böyük töhfələr verdiyini bildirib.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın mühüm nailiyyətlər qazandığını bildirib. O, "Xalqın YAP-a göstərdiyi etimad partiyanın dövlətçilik prinsiplərinə sadiq fəaliyyətinin nəticəsidir", - deyə vurğulayıb.

Milli Məclisin deputatı Asif Əsgərov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ölkənin hərtərəfli inkişafına verdiyi töhfələrdən danışıb. O, xalq-iqtidar birliyi nəticəsində Azərbaycanın tarixi nailiyyətlər əldə etdiyini diqqətə çatdırıb.

Partiya veteranları Tahir Məmmədov və Elmira Hacıyeva Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, partiyanın fəaliyyətində veteranların rolundan söz açıblar. Onlar gənc partiya üzvlərinin dövlətçilik ənənələrinə sədaqət ruhunda fəaliyyət göstərməsinin vacibliyini vurğulayıblar.

Çıxış edən Kəpənəkçi kənd ərazi partiya təşkilatının sədri Xuraman Şabanova və Təhsil ərazi partiya təşkilatının sədr müavini Rəcəb Əlizadə ərazi partiya təşkilatlarının fəaliyyətindən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında fəal iştirakından söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Zaqatala rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Partiyamızın hədəfləri xalqın milli məqsədlərini əks etdirir




Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Sabunçu rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycanın davamlı inkişafında Yeni Azərbaycan Partiyasının özünəməxsus rolu var. A.Xudadanovun sözlərinə görə, 2021-ci il martın 5-də keçirilən VII qurultay partiyanın müasir çağırışlara uyğun olaraq fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ olub. "YAP Sabunçu rayon təşkilatının fəaliyyəti də məqsədyönlü şəkildə təşkil edilib" - deyən məruzəçi əlavə edib ki, hesabat dövründə təşkilati işin daha da təkmilləşdirilməsi, partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, siyasi maarifləndirmə və ideoloji işin səmərəli təşkili əsas istiqamətlərdən olub.

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması xalqımızın milli iradəsinin, dövlətçilik ənənələrinə sədaqətinin və Azərbaycanın parlaq gələcəyinə inamının ifadəsi idi. Onun sözlərinə görə, qısa müddət ərzində geniş xalq dəstəyi qazanan partiya ölkənin ictimai-siyasi həyatında aparıcı siyasi qüvvəyə çevrilib. A.Vəliyev, həmçinin Sabunçu rayonunda həyata keçirilən abadlıq-quruculuq işləri və bu prosesdə partiya üzvlərinin fəal iştirakı barədə fikirlərini bildirib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxışında qeyd edib ki, şərəfli yol keçən Yeni Azərbaycan Partiyası çoxsaylı tarixi uğurlar əldə edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan davamlı inkişaf yolunda inamla irəliləyir. Ə.Muradov YAP Sabunçu rayon təşkilatının fəaliyyətini müsbət qiymətləndirərək təşkilata gələcək fəaliyyətində uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının qazandığı uğurlarla yanaşı, qarşıda dayanan vəzifələrdən də bəhs edib. O bildirib ki, YAP Sabunçu rayon təşkilatı qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib.

"Sülh küçəsi 32" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Mehriban Hacıyeva, "S.Hüseyn küçəsi 1" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Kərim Aşurov və partiya fəalı Zeynəb Vəlizadə Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini təmin etmiş güclü dövlət kimi çıxış etdiyini diqqətə çatdırıblar. Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu nümayiş etdirir.

Konfransda YAP Sabunçu rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP mütərəqqi ideyaları reallaşdıran siyasi qüvvədir




Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Cəlilabad rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı hesabat məruzəsi ilə çıxış edib. O, rayon təşkilatı tərəfindən Ümummilli Lider Heydər Əliyevin irsinin geniş təbliği istiqamətində görülən işlərin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə sürətli inkişafa nail olunub, ölkəmizdə ictimai-siyasi sabitlik və əmin-amanlıq təmin edilib, dövlətimizin beynəlxalq nüfuzu artıb.

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov bildirib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti mühüm uğurlarla səciyyələnir. O qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunması Azərbaycanın dövlətçilik tarixində əldə etdiyi ən möhtəşəm uğurlardan biridir. R.Cəlilov YAP Cəlilabad rayon təşkilatının fəaliyyətinin səmərəli şəkildə qurulduğunu vurğulayıb.

YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin deputatı Elman Nəsirov çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın birlik və həmrəyliyi, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasının regionda yeni reallıqlar yaratdığını, həmçinin Azərbaycanın qlobal arenada cərəyan edən siyasi və iqtisadi proseslərdə fəal aktorlardan birinə çevrildiyini vurğulayıb. O, tarixi Zəfərin xalqımızın yaddaşında əbədi yaşayacağını və gələcək nəsillər üçün qürur mənbəyi olacağını diqqətə çatdırıb.

Milli Məclisin deputatı Malik Həsənov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rolundan bəhs edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin Azərbaycanın sosial-iqtisadi inkişafına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə və qarşıya qoyulan strateji hədəflərin reallaşdırılmasına xidmət etdiyini bildirib. Malik Həsənov qeyd edib ki, əldə olunan uğurlar xalqın dövlət siyasətinə və Yeni Azərbaycan Partiyasına olan etimadını bir daha nümayiş etdirir.

Partiya fəalları Gülər İsgəndərova və Aytac Məmmədli, Moranlı kənd tam orta məktəbinin direktoru Ruslan Abasov ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından, həmçinin təhsil sahəsində həyata keçirilən genişmiqyaslı islahatlardan söz açıblar.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqeyindən söz açıb. O, partiyanın ötən dövr ərzində xalqın inam və etimadını layiqincə doğrultduğunu vurğulayıb.

Konfransda YAP Cəlilabad rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Tarixi Zəfərin reallıqlarını yaşayırıq




Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Şərur rayon təşkilatının XIII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Şərur rayon təşkilatının sədri Əmir Babayev hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, hesabat dövründə təşkilat tərəfindən partiyanın fəaliyyət istiqamətlərinə uyğun olaraq bir sıra tədbirlər keçirilib. Bildirilib ki, üzvlərin ictimai-siyasi fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi və ərazi partiya təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi diqqət mərkəzində saxlanılıb.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyindən danışıb. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev siyasətinin rolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi nailiyyətlərdən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının bu siyasətin həyata keçirilməsində mühüm siyasi platforma olduğunu qeyd edib.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çıxışında regionların sosial-iqtisadi inkişafı, yerli idarəetmənin daha da təkmilləşdirilməsi və əhalinin rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. O, partiya təşkilatlarının bu proseslərdə fəal iştirakının vacibliyini vurğulayıb.

Çıxış edən YAP Şərur rayon təşkilatının sədr müavini Adil Əhmədov təşkilatın hesabat dövründə gördüyü işlərdən, partiya üzvlərinin fəallığının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib.

Həmzəli kənd ərazi partiya təşkilatının sədri Məhsəti Rzayeva ərazi partiya təşkilatlarının fəaliyyətinin uğurlu dövlət siyasətinin təbliğində rolundan danışıb.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsinin müdir müavini Asif İmaməliyev partiyanın 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra müəyyənləşdirilən prioritetlər və qarşıda duran vəzifələrdən bəhs edib. O, siyasi maarifləndirmənin partiya fəaliyyətində mühüm istiqamətlərdən biri olduğunu vurğulayaraq, bu sahədə aparılan işlərin əhəmiyyətini diqqətə çatdırıb.

Konfransda YAP Şərur rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Davamlı tərəqqi, tarixi nailiyyətlər və yeni hədəflər








Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Qazax rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycanın ən mütəşəkkil və güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqillik tarixində müstəsna rolu var. A.Nəbiyev hesabat dövründə Ümummilli Lider Heydər Əliyevin zəngin irsi və misilsiz xidmətləri, Prezident İlham Əliyevin uğurlu siyasətinin təbliği istiqamətində keçirilən tədbirlərin əhəmiyyətindən söz açıb.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxışında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O qeyd edib ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edərək dövlətçilik tarixinin ən mühüm nailiyyətlərindən birinə imza atıb. İcra başçısı, həmçinin vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti cəmiyyət tərəfindən birmənalı şəkildə dəstəklənir.

Çıxış edən YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutur. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Müstəqil, suveren Azərbaycan yeni dünya nizamının qurulmasında söz sahibinə çevrilib".

Çıxış edən partiya veteranı Abbas Göyüşov YAP Qazax rayon təşkilatının fəaliyyətindən bəhs edərək, təşkilatın partiyanın ideoloji prinsiplərinin təbliği və üzvlərin ictimai fəallığının artırılması istiqamətində gördüyü işlərə toxunub.

Partiya veteranları Gülnaz Alışanova və Kazım Kazımlı, partiya fəalı Nicat Göşşüyev, Qazax Dövlət Sosial İqtisadi Kolleci ərazi partiya təşkilatının sədri Esmira Şıxməmmədova hesabat dövründə partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında, o cümlədən humanitar aksiyalarda fəal iştirakından söz açıblar. Natiqlər bundan sonra da rayon təşkilatının uğurları naminə yüksək siyasi fəallıq göstərəcəklərini diqqətə çatdırıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov qeyd edib ki, 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyası qısa bir müddətdə milyonların sevgisini qazanaraq ümumxalq partiyasına çevrilib. A.Salmanov YAP-ın keçdiyi şərəfli yoldan, partiyanın VII qurultayından sonra aparılan islahatlardan, həyata keçirilən məqsədyönlü tədbirlərdən, əldə olunan nailiyyətlərdən və qarşıda duran vəzifələrdən ətraflı bəhs edib.

Konfransda YAP Qazax rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Uzaqgörən və məqsədyönlü siyasi strategiya







Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Göyçay rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, təşkilat hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun qurub, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Vurğulanıb ki, partiya üzvlərinin ictimai fəallığının artırılması və ideoloji prinsiplərin təbliği istiqamətində ardıcıl iş aparılıb.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb, partiyanın cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsədlər ətrafında birləşdirən siyasi qüvvə olduğunu vurğulayıb. O, həmçinin Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün bölgələrində, o cümlədən Göyçay rayonunda həyata keçirilən abadlıq-quruculuq işlərindən danışıb.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov partiyanın keçdiyi şərəfli yol, veteranların ictimai-siyasi proseslərdə rolu və gənc nəslin dövlətçilik ənənələrinə bağlı ruhda formalaşmasının əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Partiya fəalı, Göyçay şəhər 4 saylı tam orta məktəbin müəllimi Firəngiz Məmmədyarova, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci ərazi partiya təşkilatının sədri Səbinə Qurbanova və Qaraməryəm kənd bələdiyyəsinin sədri Süleyman Səfərov partiyanın fəaliyyətinin müxtəlif istiqamətlərinə toxunaraq, ərazi partiya təşkilatlarının işinin səmərəli qurulması, üzvlərin ictimai fəallığının artırılmasının əhəmiyyətini diqqətə çatdırıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev partiyanın 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra qarşıya qoyulan vəzifələrdən, əsas fəaliyyət istiqamətlərindən və ərazi partiya təşkilatlarının rolunun artırılmasının əhəmiyyətindən bəhs edib.

Konfransda YAP Göyçay rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Rifah, inkişaf və qələbələr







Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, YAP Ağstafa rayon təşkilatı hesabat dövründə rayonun ictimai-siyasi həyatında fəal iştirak edib, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi diqqət mərkəzində saxlanılıb.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov çıxışında Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı və alternativsiz siyasi qüvvə kimi mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan hərbi-siyasi və sosial-iqtisadi inkişaf baxımından mühüm nailiyyətlər əldə edib.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov çıxışında Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra partiyanın fəaliyyətinin müasir çağırışlara uyğun qurulduğunu bildirib. O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasını tarixi nailiyyət kimi qiymətləndirib, əldə edilən şanlı zəfərlərin regionda yeni reallıqlar yaratdığını vurğulayıb.

Tədbirdə partiya veteranı, Ağstafa Rayon Ağsaqqallar Şurasının sədri Sənan Mustafayev, "Mərkəzi Xəstəxana" ərazi partiya təşkilatının sədr müavini Həcər Namazova, partiya fəalları Solmaz Nağıyeva və Şəfəq Heydərli Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan və hesabat dövründə rayon təşkilatının fəaliyyətindən söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rolundan, VII qurultaydan sonra təşkilati fəaliyyətin daha da təkmilləşdirilməsindən bəhs edib. O, YAP Ağstafa rayon təşkilatının hesabat dövründə gördüyü işləri müsbət qiymətləndirərək gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Ağstafa rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ölkəmiz tərəqqi yolunda inamla irəliləyir







Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Füzuli rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, təşkilat hesabat dövründə fəaliyyətini partiyanın qarşıya qoyduğu vəzifələrə uyğun qurub, rayon ərazisində partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji prinsiplərin təbliği, qadın və gənclərin ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi istiqamətində ardıcıl iş aparıb.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycanın möhtəşəm nailiyyətlər qazandığını bildirib.

YAP İdarə heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Yeni Azərbaycan Partiyasının cəmiyyətdə fəal mövqeyindən, qadınların ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib. O, partiyanın VII qurultayından sonra fəaliyyətinin daha səmərəli qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Şəhid anası Səridə Zalova, Füzuli Dövlət Dram Teatrı ərazi partiya təşkilatının sədri Azər Abbasov və Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbin direktoru Solmaz Qənimətli şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısından, partiya təşkilatlarının yerli səviyyədə fəaliyyətindən və ictimai təşəbbüslərdə fəal iştirakın önəmindən danışıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə hesabat dövründə YAP Füzuli rayon təşkilatının ərazi partiya təşkilatlarının fəaliyyətinin daha da gücləndirildiyini, o cümlədən partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.

Konfransda YAP Füzuli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Sədərək rayon təşkilatının XIII konfransı keçirilib







Sentyabrın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Sədərək rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Sədərək rayon təşkilatının sədri Vüsalə Əliyeva hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası nüfuzlu siyasi təşkilat olaraq ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayıb. 1992-ci il noyabrın 21-də təsis edilən partiya hər zaman milli maraqları ön planda tutub, demokratik ənənələrin inkişafına böyük töhfələr verib.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Yusif Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə dövlətçilik ənənələrinin inkişafı istiqamətində şərəfli bir missiya yerinə yetirib. Vurğulanıb ki, YAP xalqın dəstəyinə arxalanır və Ulu Öndər Heydər Əliyevin siyasi irsini davam etdirir. O, həmçinin rayonun sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi və ictimai fəallığın artırılması istiqamətində görülən işlərdən bəhs edib.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsindən və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən söz açıb. O, ərazi bütövlüyünün və suverenliyin bərpasını dövlətçilik tariximizin ən möhtəşəm uğurlarından biri kimi dəyərləndirib.

Çıxış edən partiya veteranı Arif Qasımov, Sədərək Rayon Təhsil Şöbəsinin müdiri Sirac Qarayev Yeni Azərbaycan Partiyasının xalqı vahid siyasi ideya ətrafında birləşdirdiyini və veteranların təcrübəsinin gənc üzvlərin fəaliyyətində mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsinin müdir müavini Asif İmaməliyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin yeni tələblər əsasında qurulması, siyasi maarifləndirmə işinin genişləndirilməsi və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Sədərək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# İRƏVAN ZİYALILARINDAN MİRMƏHƏMMƏD MİRFƏTULLAYEV









İrəvanda Azərbaycan ictimai, ədəbi-mədəni mühitində səmərəli fəaliyyət göstərən İrəvan ziyalılarından biri də Mirməhəmməd Mirfətullayev olmuşdur. Mirməhəmməd Hacı Mir Əsədullazadə oğlu Mirfətullayev 1882-ci ildə İrəvanda anadan olmuşdur. Dramaturq, publisist, naşir, jurnalist Mirməhəmməd Mirfətullayev İrəvanda maarifpərvər, yüksək təhsilə malik, ərəb və fars dillərini mükəmməl bilən, xeyirxah ziyalı və böyük nüfuz sahibi kimi tanınırdı. XX əsrin ilk illərində İrəvanda yaşayan Mirməhəmməd Mirfətullayev qəzet çıxarmaq üzərində çox çalışmış, lakin bu arzusunu gerçəkləşdirə bilməmişdir. Cabbar Əsgərzadənin epistolyar nümunələrindəki fikirlərindən də aydın olur ki, o, jurnalın redaktoru - məsulu olmaq istəməmiş, Mirməhəmməd Mirfətullayevin redaktorluğu ilə nəşr olunmasını daha məqsədəuyğun hesab etmişdir. Cabbar Əsgərzadə bu barədə yazır: "Mən heç vaxt müdir adını üstümə götürmək istəmiyordum və istəmərəm də. O cənab hər xərci öhdəsinə alaraq "Lək-lək" adına bir məzhəkə çıxarmaq istiyor". Bu fikirlərdən həm də aydın olur ki, "Lək-lək" satirik məcmuəsinin nəşri Mirməhəmməd Mirfətullayev tərəfindən maliyyələşdirilmişdir. Amma Mirməhəmməd Mirfətullayevin təkidindən və onların arasında əldə olunan razılıqdan sonra Cabbar Əsgərzadə jurnalın redaktoru vəzifəsini öhdəsinə götürüb, hər iki tərəqqipərvər ziyalı bir cəbhənin döyüşçüsü kimi eyni ideyalar uğrunda İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında öz qələmi və əməli fəaliyyətləri ilə çiyin-çiyinə yaxından iştirak etmişdir. 1917-ci ildə "Beynəlmiləl Gənclər Şurası" tərəfindən Azərbaycan, rus, erməni dillərində çıxan "Cavanlar şurası" adlı mətbuat orqanının Azərbaycan şöbəsinin üç azərbaycanlı redaktorundan biri Mirməhəmməd Mirfətullayev olmusdur. Onun 1911-ci ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində 3 pərdəli "Qaradan artıq boyaq olmaz", "Kərbəlayi Güzəmələnin övrəti" dram əsərləri, 1916-cı ildə İrəvanda "Lyus" mətbəəsində "Kefcil və kefcillər" 4 şəkilli musiqili komediyası çap olunmuşdur. "Qaradan artıq boyaq olmaz" əsərində İrəvan Müəllimlər Seminariyasında baş vermiş faciəli bir hadisəni təsvir etmişdir. Seminariya tələbəsi Əziz bəyin burada təhsil alan bir qıza vurulmasından, bu eşqin uğursuzluğundan bəhs edilir. Mirməhəmməd Mirfətullayevin İrəvan teatrında göstərilmiş pyesləri İrəvanda dramaturgiya sahəsində atılmış cəsarətli addım kimi diqqəti cəlb edir. Onun əsərlərində yüksək dramaturji keyfiyyətlər özünü göstərməsə də, konfliktlər maraqlı, satira, yumor və sarkazm diqqətə layiqdir.

Mirməhəmməd Mirfətullayevin pyesləri cəhalətin yaratdığı faciələri göstərməklə dramaturgiyanın vodevil növünə məxsus keyfiyyətlərə malikdir. Onun "Kərbəlayi Güzəmələnin övrəti" adlı pyesi bu cəhətdən xüsusilə maraqlıdır. Müəllif həmin əsərinin müqəddiməsində göstərir ki, cəhalətin yaratdığı acı vəziyyətlər bu əsərin yazılmasına səbəb olmuşdur. Belə ki, o, teatrı bir ibrət dərsi bilib səhnə əsəri yazmağa meyl etmişdir. Pyesdə klassik üslubda yazılmış səhnə əsərləri kimi məclis əhlinin təsviri, peşəsi və qiyafəsi göstərilmiş, tamaşada olan rikvizitin siyahısı verilmişdir.

Mirməhəmməd Mirfətullayevin 3 pərdə, 4 şəkildə "Kefcil və kefcillər" adlı pyesi də 1914-1915-ci illərdə İrəvanda teatr həvəskarları tərəfindən Yunis Nurinin rejissorluğu ilə tamaşaya qoyulan bu əsər milləti, xalqını unudub "dünya beş gündür" fəlsəfəsi ilə eyş-işrəti həyatın birinci şərti hesab edən adamların ifşasına həsr edilmişdir. Bu əsərdə müəllif ictimai konfliktlərin həlli baxımından bir qədər irəli getmiş, ziddiyyətləri quruluşun yaraları kimi qiymətləndirmiş, onların islahını millətin maariflənməsində, birliyində və fənalığa qarşı mübarizəsində görmüşdür. 62 səhifədən ibarət olan bu pyes kamil musiqili komediya deyildir. Burada olan hadisə nəsrlə danışılır, surətlər yeri gəldikcə mahnılara, duetlərə müraciət edirlər. Mahnıların melodiyaları isə notla deyil, remarka yolu ilə göstərilmişdir. Belə ki, ayrı-ayrı xalq mahnılarının adları qeyd edilmiş, əsərdəki nəğmə və duetlərin həmin hava ilə oxunacağı göstərilmişdir. Bütün bunlar həm də Mirməhəmməd Mirfətullayevin müəyyən musiqi biliyinə malik olduğunu göstərir. Mirməhəmməd və qardaşı Mirfətulla Mirfətullayev həm də İrəvanda böyük imkanlara malik iş adamı kimi tanınırdılar. Onların İrəvanda bir neçə şəxsi mülkləri, dükanları olmuşdur. Mirfətullayev qardaşları həm də İrəvanda böyük xeyriyyəçilik fəaliyyəti göstərirdilər. Onlar ehtiyacı olan insanlara kömək yolunda təmənnasız xidmət göstərən, cəmiyyətin maariflənməsində, təhsil və mədəniyyətin inkişafında yaxından iştirak edən şəxslər olmuşdular. Nəsillər dəyişsə də, xeyirxah və ziyalı əməlləri bu gün də onları yaşadır.



***Cəlal Zəngi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Qlobal enerji transformasiyası

Hazırda dünya sürətlə dəyişir və bu transformasiya bir sıra sahələrdə özünü daha qabarıq şəkildə göstərir. Əksər ölkələrin milli təhlükəsizliyinin ən vacib elementi sayılan enerji sektoru da bu sırada yer alır. Yüz illərdir ki, dünya kömür, neft, qaz kimi qazıntı yanacağından bəhrələnir. İndi isə zaman və çağırışlar dəyişib və qlobal enerji keçidi günümüzün reallığına çevrilib. Əlbəttə, ənənəvi enerji mənbələri hələ uzun müddət bundan sonra da qlobal iqtisadiyyatda və gündəlik həyatımızda öz əhəmiyyətini qoruyub saxlayacaq. Ancaq müşahidə edilən odur ki, bərpaolunan mənbələrdən alınan enerjinin həcmi artmaqdadır.

Eyni zamanda, bu proses ayrı-ayrı ölkələrdə daha sürətlə gedir. Hələlik Çin enerji keçidində liderdir və onu izləyən ölkələrdən xeyli irəlidədir. Avropa İttifaqı (Aİ) isə qoca qitənin "REPowerEU" adlandırılan xilas planını hazırlayıb ki, burada da enerjiyə tələbatın qarşılanması, bütövlükdə, yeni şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün bərpaolunan mənbələrdən alınan enerjinin həcmlərinin artırılması üstün prioritet kimi müəyyənləşdirilib.

## Dünya üçün labüd proses

Bir qədər bundan əvvəl Beynəlxalq Enerji Agentliyi (BEA) yeni hesabatını yayıb. Sənəddə dünyada yaşıl enerjiyə keçidin labüd olduğu xüsusi olaraq vurğulanır. Bildirilir ki, dünya bərpaolunan enerjiyə doğru qarşısıalınmaz bir keçiddədir. Hesabatda təmiz enerji və texnologiyalarda artımın qənaətbəxş olduğu qeyd edilib. Belə ki, 2020-ci ildə satılan hər 25 avtomobildən biri elektriklə işləyirdi, amma cəmi üç il sonra bu rəqəm beşdəbirə yüksəlib. Agentliyin icraçı direktoru Fatih Birol deyib: "Təmiz enerjiyə keçid bütün dünyada baş verir və bu, qarşısıalınmaz prosesdir. Sadəcə, onu sürətləndirmək lazımdır, çünki təmiz enerjiyə keçid nə qədər tez olsa, hamımız üçün bir o qədər yaxşıdır. Hökumətlər, şirkətlər və investorlar təmiz enerji keçidlərinə mane olmaq yerinə, onların arxasınca getməlidir".

BEA hesab edir ki, təmiz enerji texnologiyaları 2030-cu ilə qədər dünya enerji sistemində indikindən daha böyük rol oynayacaq. Yollarda elektriklə işləyən avtomobillərin sayı 10 dəfə artacaq, qlobal elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payı 20 faiz çoxalacaq. Dənizdə yerləşən külək elektrik stansiyası layihələrinə kömür və qaz elektrik stansiyalarından üç dəfə çox investisiya qoyulacaq. Ölkələr mövcud siyasətlərinə və iqlim məqsədlərinə uyğun hərəkət etsələr, təmiz enerji sahəsində irəliləyiş daha sürətli ola bilər.

Hesabata görə, bərpaolunan enerji mənbələri 2030-cu ilə qədər elektrik enerjisi istehsal gücünün 80 faizini təşkil edəcək. Təkcə Günəş enerjisi bu artımın yarısını ödəyəcək. Lakin bu artım hələ də Günəş enerjisində potensialın altında qalacaq. 2030-cu ilə qədər ümumi 800 qiqavat gücündə yeni Günəş elektrik stansiyaları yaradılarsa, Çində kömürdən elektrik enerjisi istehsalı 20 faiz, Latın Amerikası, Afrika, Cənub-Şərqi Asiya və Yaxın Şərqdə isə kömür və qazdan elektrik enerjisi istehsalı 25 faiz azala bilər. BEA prezidenti Fatih Birol hesabatı dəyərləndirərkən ənənəvi enerji bazarlarında mövcud gərginlik və dalğalanmalara diqqət çəkib: "Neft və ya qazın dünyanın enerji və iqlim gələcəyi üçün etibarlı seçim olduğuna dair arqumentlər həmişəkindən daha zəifdir. Hər bir ölkə öz yolunu tapmalı olacaq, lakin təmiz enerjiyə keçidi sürətləndirmək üçün beynəlxalq əməkdaşlığı həyati əhəmiyyət kəsb edir. Xüsusilə, emissiyaların azaldılma sürəti böyük ölçüdə dünyanın sürətlə inkişaf edən iqtisadiyyatlarında artan enerji tələbatını ödəmək üçün davamlı həllərdən asılıdır. Bütün bunlar əməkdaşlığın ikiqat artırılmasının vacibliyinə işarə edir".

## Qoca qitə enerji transformasiyası yolunda

Avropa İttifaqı ilk növbədə geosiyasi səbəblərə görə enerji təhlükəsizliyinə artan təhdidləri nəzərə almaqla enerji keçidini sürətləndirib. "WindEurope" təşkilatının hesabatında bildirilir ki, cari ilin birinci yarısında Avropada quraşdırılmış külək enerjisi gücü 311 qiqavatı ötüb. Hesabatda bildirilir ki, bu göstəricinin 270,5 qiqavatı qurudakı külək turbinləri, 40,9 qiqavatı isə dənizdəki turbinlərdən əldə edilib.

Hesabat dövründə Avropada 8,8 qiqavat yeni külək enerjisi gücü quraşdırılıb. Bunun da 7 qiqavatı Avropa İttifaqına üzv 27 dövlətin payına düşüb. Qurudakı külək elektrik stansiyaları 8,8 qiqavatlıq yeni gücün 74 faizini təşkil edib. Yarım ildə ən çox külək turbini quraşdıran Avropa ölkəsi Almaniya olub (3,4 qiqavat). Sonrakı yerlərdə Böyük Britaniya (789 meqavat) və İspaniya (612 meqavat) qərarlaşıb.

İlin birinci yarısında Avropada yeni külək elektrik stansiyaları üçün təxminən 9 milyard avro dəyərində yekun investisiya qərarları qəbul edilib. İnvestisiyalar əsasən qurudakı külək layihələrində cəmləşib. Bu sahədə 4,5 gigavat gücün maliyyələşdirilməsi üçün 7 milyard avroluq investisiya qərarları qəbul olunub. Dənizdə təkcə 630 meqavatlıq "Nordlicht II" layihəsi üçün yekun investisiya qərarı verilib və bu layihə ilə bağlı 1,9 milyard avro öhdəlik götürülüb.

Hesabatda qeyd olunur ki, yarım ildə Avropada 10,6 qiqavatlıq yeni külək turbinləri sifarişi verilib. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 12 faiz azdır. Sifarişlərin 7,8 qiqavatlıq hissəsi qurudakı turbinlər, 2,8 qiqavatı isə dənizdəki turbinlər üçün edilib.

İlin birinci yarısında Avropada keçirilən tenderlərdə 17,2 qiqavat yeni külək enerjisi gücü ayrılıb. Bu gücün 8,8 qiqavatı qurudakı külək layihələri, 8,4 qiqavatı isə dənizdəki layihələrin payına düşüb. Bəzi Avropa ölkələri ilin ikinci yarısında 24 qiqavatdan çox yeni külək enerjisi gücü üçün tender keçirməyi planlaşdırır.

2026-2030-cu illər arasında Aİ-də orta hesabla illik 22 qiqavat yeni külək enerjisi gücü quraşdırılması gözlənilir.

## Çinin enerji keçidində dünya liderliyinə yüksəlişi

Dünyada əhali sayına və iqtisadiyyatın həcminə görə ikinci dövlət olan Çin Xalq Respublikası bərpaolunan enerji sahəsində qısa müddətdə ciddi nailiyyətlər əldə edərək, ambisiyalı hədəflər müəyyənləşdirib. Hazırda Çin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin istehsalına görə dünyanın lider ölkəsidir və bu göstəriciyə görə ən yaxın rəqibi ABŞ-ı iki dəfə qabaqlayır.

Ekspertlərin fikrincə, bərpaolunan enerji sektoru qazıntı və nüvə enerjisi potensialına nisbətən daha sürətlə inkişaf edir və yaxın vaxtlarda dünya üzrə bərpaolunan enerji potensialının təxminən 43 faizini məhz Çin təmin edəcək. Bu ölkənin bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalı 1000 qiqavata çatıb ki, bu da ölkənin ümumi generasiya gücü potensialının 40 faizdən çoxu deməkdir. Mövcud dinamikaya nəzər yetirəndə Çin hökumətinin 2030-cu ilədək Günəş və külək mənbələrindən 1200 qiqavat enerji əldə etmək, habelə 2060-cı ilədək bütün enerjinin 80 faizini alternativ mənbələrdən təmin etmək hədəfinə çatacağı real görünür. Çin Dövlət Şurasının (Nazirlər Kabineti) hələ 2013-cü ildə qəbul etdiyi fəaliyyət planında ölkənin enerji balansında bərpaolunan enerji mənbələrinin payını artırmaq niyyəti əksini tapıb.

Çin bərpaolunan enerji mənbələrini təkcə karbon emissiyasının azaldılması üçün vasitə hesab etmir. Bu məsələdə ölkənin enerji təhlükəsizliyinin təminatı da ciddi əhəmiyyət daşıyır. Ölkədə bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin əsas hissəsi su elektrik stansiyalarının payına düşsə də, ildən-ilə Günəş, külək və bioyanacağın xüsusi çəkisi çoxalır.

ÇXR hazırda dünyanın ən böyük külək enerjisi ehtiyatlarına malik ölkəsidir və bu təbii resursların dörddə üçü dənizdə yerləşir. 2020-ci ildə ölkədə 71,7 qiqavat gücündə külək enerjisi avadanlığı quraşdırılıb ki, bu da 2019-cu illə müqayisədə 60 faiz çoxdur. Çin külək mənbələrindən elektrik enerjisi istehsalı sahəsinə təkcə daxili deyil, xarici investisiyaların da cəlb olunması üçün təşviqedici qərarlar qəbul edib, bu istiqamətdə avadanlıq istehsalında önəmli irəliləyiş baş verib. On ildən çoxdur ki, Çin külək turbinlərinin istehsalında dünya lideridir.

Hökumətin 2009-cu ildə elan etdiyi "Qızıl günəş" stimullaşdırma planına uyğun olaraq Günəş enerjisi sektorunun inkişafına böyük diqqət yönəldilməyə başlanılıb. Yerli şirkətlər bu istiqamətdə müvafiq texnologiyanın tədqiqi və istehsalında ciddi nailiyyətlər əldə ediblər.

Çin bioyanacaq mənbələrdən istehsal olunan enerji sektorunda da davamlı iş aparır. Ölkənin 11-ci beşillik (2006-2010-cu illər) üçün inkişaf planında ildə 6 meqaton etanol istehsalı potensialının artırılması və bu rəqəmin 2020-ci ilədək 15 meqatona çatdırılması hədəfi əksini tapmışdı. İlk addım ildə 16,6 meqavat elektrik enerjisi istehsal etmək gücündə olan "Kaiyou yaşıl enerji" istehsalı müəssisənin istifadəyə verilməsi ilə atılıb.

Statistikaya görə, 2017-ci ildə bütün dünyada bərpaolunan enerji sektoruna yatırılan investisiyaların məbləği 280 milyard ABŞ dolları təşkil etmişdisə, bunun 126,6 milyardı (45 faiz) Çinin payına düşüb. Ölkə elə o vaxtdan bərpaolunan enerji sahəsindəki investisiya, istehsal və istehlak üzrə dünya liderinə çevrilib.



## Yeni texnologiyalar bazarında qiymətlər aşağı düşür

Qlobal enerji keçidi sürətləndikcə yeni texnologiyalar bazarında qiymətlərin aşağı düşməsi müşahidə edilir ki, burada da Çinin müstəsna rolu var. Çinin qlobal yaşıl transformasiyaya verdiyi töhfə də az əhəmiyyət daşımır. Son illərdə ölkə Günəş energetikası, akkumulyatorlar, elektromobillər və digər aşağı karbonlu texnologiyalar sahəsində nəhəng istehsal və tətbiq gücləri yaradıb. Bu proses Si Cinpinin iqtisadi modernləşməni ekoloji sivilizasiya, texnoloji yeniləmə və daha təmiz energetikaya keçidlə əlaqələndirən strateji kursuna uyğundur.

2024-cü ildə Çin təxminən 278 QVt yeni Günəş və təqribən 80 QVt yeni külək enerjisi gücünü istismara verib. Beynəlxalq Enerji Agentliyinin qiymətləndirməsinə görə, Günəş energetikası üzrə qlobal istehsal zəncirinin güclərinin təxminən 85 faizi, litium-ion akkumulyatorlarının istehsal güclərinin isə təqribən 80 faizi Çinin payına düşür.

İnteqrasiya olunmuş təchizat zəncirləri, toplanmış təcrübə və yüksək daxili rəqabət texnologiyaların dəyərinin azalmasına şərait yaradır. 2023-cü ildən etibarən dünyada Günəş modullarının qiyməti təxminən iki dəfə, akkumulyator batareyalarının qiyməti isə təqribən 30 faiz aşağı düşüb. Avropa İttifaqı daxilindəki ticarət nəzərə alınmadıqda, Çin əsas təmiz enerji texnologiyaları üzrə dünya ticarətinin təxminən yarısını təmin edir. 2025-ci ildə Çində akkumulyator bloklarının orta qiyməti Şimali Amerika ilə müqayisədə 30 faiz, Avropa ilə müqayisədə isə 35 faiz aşağı olub. Eyni təsir elektrik enerjisinin maya dəyərində də müşahidə olunur: 2024-cü ildə Çində yeni iri Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin orta dəyəri 1 kVt•saat üçün 0,033 ABŞ dollarınadək enib, halbuki dünya üzrə orta göstərici 0,043 dollar təşkil edib. Ümumilikdə isə Günəş enerjisi istehsalı artıq ən ucuz yeni fosil yanacaq əsaslı generasiya ilə müqayisədə təxminən 41 faiz daha ucuz olub.

Göründüyü kimi, Çin yalnız öz enerji keçidini həyata keçirmir, eyni zamanda digər ölkələr üçün belə bir keçidin dəyərini də aşağı salır. Daha ucuz Günəş panelləri, akkumulyatorlar və elektromobillər müqayisəolunan sənaye bazasına malik olmayan dövlətlər üçün yaşıl texnologiyaları daha əlçatan edir. Beləliklə, Çin eyni vaxtda həm enerji keçidinin ucuzlaşmasına təsir göstərən əsas amillərdən birinə, həm də bununla bağlı qlobal istehsal zəncirlərinin mərkəzi həlqəsinə çevrilir.

***Mübariz FEYİZLİ***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm









*Rəşad Nağı Mustafa*

Nə fərqi, hardasan, elə hər yerdə
adamlar ləng olur, ömür tələsir.
Qayıt gəl, uzaqlıq qəssablar kimi,
taleyin ən yaxşı yerindən kəsir.
İstanbul dizimin dibidir mənim,
rəsmi sənədlərdə ancaq uzaqsan.
Uçur ümidlərim təyyarələrdə,
bilirəm, nə vaxtsa qayıdacaqsan.
Orda hansı səmtə bükülür dizin?
Orda necə axır gözünün yaşı?
Məni unutmaqçün dualar elə,
Allahın evi var hər addımbaşı.
Mən də unudardım, iradəm deyil,
Səni unutmağa ürəyim qıymır.
Bizi bu şəhərlər, küçələr, evlər,
məscidlər ayırır, Allah ayırmır...
Daha şeirlərlə dolur boşluğun,
ölkə sərhədlərin aşır həsrətin.
İndi şeirlərin əzbər bilirəm,
Attila İlhanın, Nazim Hikmətin..

***

Ta keçmişəm tarix yazan yaşımı,
Yaşamaqla aldadıram başımı.
Buraxmışam azad könül quşumu,
Uçur, uçur, sənə qonur, görürsən?
Nəyim çatmır, var əlimin əsası,
Geyinmişəm qərib dərviş libası.
Allah məni qəbul edər, Leylası?
Saqqalım da tez uzanır, görürsən?
Bu dərd məndə bir sevgidən qalıqdır,
Yanan könlüm kor gözümə işıqdır.
Axı sənin bəsirətin açıqdır,
Uzaqda bir ürək sinir, görürsən?
Baxan mənə görür ki, can üstəyəm,
Gör nə çoxdur məni ötmək istəyən.
Öz-özündən çıxıb getmək istəyən
Ayağından yaralanır, görürsən?

***

Anamın doğmalığı atamın yoxluğunu
ört-basdır edəndə anladım ki,
insan ancaq Allahsız yaşaya bilməz.
Sənsiz də yaşamaq olurmuş, qadası.
Misal üçün, məni səhər yuxudan oyadan da var,
axşam "Evə tez gəl" deyən də.
Gör bir necə varlığı qoymuşam yoxluğuna.
Şuşada özünü güllənin qabağına verən əsgərin cəsarəti-
nə
and olsun ki,
daha yıxılmıram sənin boşluğuna.
Yaxşıyam, canım üçün, yaxşıyam.
Elə sən də yaxşısan.
Mənim olmadığım yerlərdə
xoşbəxtlik var, bilirəm.
Elə sənin olduğun yerlər kimi,
80-ci illər kimi.
Bir də ki, səni təzədən sevməyə nə var?!
Özün də yaxşı bilirsən,
bilirsən ki,
əlimin çatmadığı yerə ürəyim çatırsa,
əlçatmaz deyilsən.
Özün də yaxşı bilirsən...

***

Böyük-böyük təpələrə
balaca-balaca daşlar yığıb
Əbabil quşlarını gözləyirəm.
Ya onlar gələnəcən,
ya hicrət yaşınacan
yaşamaq istəyirəm.
Lalam, koram, karam,
danışsam, Allahla danışaram.
Getsəm, sur səsinə gedərəm,
gəlsəm, qanad səsinə gələrəm.
Bundan sonra ölsəm,
bir qadının yox,
Əzrailin baxışına ölərəm.
Düşmüşəm Mustafanın izinə,
dua edirəm hamının əvəzinə.
Bağışla, Allah, bağışla.
Bağışla bu Yer kürəsini,
bağışla bir uşağa.
Əlini yandırmaqdan qorxar o,
atmaz dünyanı ocağa.
Ya Rəhman. Ya Rəhim.
Bu zikrin bir neyi çatmır.
Adamın nəfəsi yetmir,
adamın ürəyi çatmır.

***

Yenə sizin küçəni qarış-qarış gəzmişəm;
deməli, 13 ağac, 6 işıq dirəyi,
bir neçə yiyəsiz it.
Ağaca söykənmişəm,
işığa göz dikirəm, itlərlə danışıram.
Səni unutmaq üçün bundan yaxşı şərait?!
Küçənizin başında bir məscid də var hələ,
Azanı eşidəndə dilimin altında bir az
zümzümə eləyirəm,
bu sirli çağırışı uşaqların dilinə
tərcümə eləyirəm...
Ax, bu yeniyetmələr!
Ax, bu yeniyetmələr!
Məscidin hasarında:
"Günel, səni sevirəm!"
"Günel, məni bağışla!"
"Günel, çox darıxmışam!" -
qırmızı, ağ yazılar...
Quşlar divardan məktub götürə bilmir axı,
alın yazılarını bura nahaq yazırlar...
Görəsən, minarədən
özümü yerə atsam,
mənə günah yazılar?
İstəyirəm, qışqırım küçənin ortasında:
"Günel, o səni sevir!"
"Günel, onu bağışla!"
"Günel, o, çox darıxıb!"
Səni görsəm, qorxuram, "Günel" deyim karıxıb.
Hava da ki çox isti, ürəyim də sıxılır,
eh, bu darıxmaq da ki yığıb məni boğaza.
Siqaret də qurtarıb.
Tərsliyə bax, mən çəkən siqaretdən də satmır
küçədəki mağaza.
Məndən 5-6 ağac o tərəfdə bir nəfər
bir ağaca söykənib, işığa gözün dikib,
itlər ilə danışır, dərindən nəfəs alır.
Deyəsən, o Günel də sizin küçədə qalır...

***

Qırıb bir yana atmışam
saatı qurmamaq üçün.
Hər şeyə gözümü yumub,
yatıram durmamaq üçün.
Üzünə dəyməsin deyə,
əlimi də gizlədirəm.
Dilimi də gizlədirəm,
qəlbini qırmamaq üçün.
Dünya kimin məzarıdı,
bura doğulub girirəm.
Suya boğulub girirəm,
özümü yormamaq üçün.

***

Müharibə başlayıb... Nəbatat bağındayam.
Hava yaman soyuqdu, özüm də bir az xəstə.
Heyf, evdən çıxanda papaq da qoymamışam
Anam elə bilir ki, ölüm ayağındayam.
Müharibə başlayıb... Nəbatat bağındayam...

Mən səni gözləyirəm....
Eləcə dayanmışam Eldar şamının altda
Gör e, adam adında ağaclar var həyatda
Ağacların üstündən yıxılan balacalar böyüyür, igid olur.
Mən səni gözləyirəm, amma indi, bəlkə də,
bu ağacın adaşı Şuşada şəhid olur.

Mən səni gözləyirəm...
Gəlsən, soruşma məndən Vətən səninçün nədi?
Bax, indi dediklərim hamısı bəhanədi:

Anamın olduğu yer, atamın yatdığı yer,
bir də sən hardasansa ora mənə vətəndi.
Anam heç vaxt ölməsin, sən də ölmək istəmə.
Mən atamdan bilirəm, ölüm bədahətəndi.

Mən də mütləq öləcəm, elə Eldar şamı da,
Bir əsgər anasının ümidi ölmür heç vaxt,
bir də əziz şəhidlər ölmür, başına dönüm
Məni bərk qucaqlama, axı atan deyiləm
Məndən barıt qoxusu gəlmir, başına dönüm.

Hər şeyə baxmayaraq
yenə də məni sevmək
çox xoşuna gəldisə,
dua et, ayrılmayaq,
duadan yaxşı nə var
ürəyin gözəldisə...

# Kitab sevincləri

## *Bakıda da olur. Və bizi birləşdirir...*

Hər il Dublin Kitab Festivalının dəb və istiqamətləri dəyişir. Bu il festivalın iyirmi illiyi olacaq, amma proqram müxtəlif istiqamətlərdə o qədər zənginləşib ki, ilk baxışdan hətta yoruculuq da yarada bilər.

Dublin Kitab Festivalı təkcə kitaba fokuslanmır, kitab ətrafı elə "qurğular qurur" ki, xırda elementlərə fikir verməmək olmur. Məsələn, builki hesabatlarda belə bir nəticəyə gəliblər ki, Dublin Kitab Festivalı fərqli istiqamətdə yazmağı öyrədib - xüsusilə, fantastika tərəfdə yeni yazı, məzmun, axtarış imkanları açılıb. İrlandiya Ədəbiyyatını dünyaya tanıdıblar. Ələlxüsus, qadın müəlliflərin sayı, uğuru xeyli artıb. O qədər ki, qadınlar bədii ədəbiyyat mükafatlarının qalibi olub, onların əsərləri əsasında çəkilmiş seriallar Avropanın məşhur telekanallarında efirə gedib. Beləcə, ayrı-ayrı kitab və müəlliflər daha da populyarlaşıb. Bu əsərlər tarixi irsdən ailəyə, sosial münasibətlərdən köklü dəyişikliklərə qədər bir çox mövzuları əhatə edərək, dünyanın diqqətini cəlb edə bilib.

Festivalın proqramına nəzər saldıqca təşkil edilən tədbirlər üzrə şaxələnmənin kitabdan "qaçmaqla" kitaba cəlbetmə cəhdlərini görməmək mümkün deyil. Bir neçə istiqaməti sadalayaq: İncəsənət, Qayıq turu, Ailə və uşaq proqramı, Film, Tarix, İrland dili, Təbiət, Qeyri-bədii əsərlər, Şeir, Peşəkar inkişaf, Elm həftəsi, Gəzinti və sair.

Əsas, kitabdan sonrakı xatirələrdir, kitab özü isə gerçək...

Kitabın ətrafına toplaşmaq təkcə onu satın alıb oxumaqdan ibarət deyil. Son illər Bakıda təşkil edilən müxtəlif kitab festivalları ətrafında, əsasən, kitabın,



*Məqsəd Nur*

mütaliənin gündəlik həyatımıza daxil ola bilməsi üçün maraqlı, uğurlu cəhdlər edilir. Lakin bu cəhdlərin içində bir ehtiyatsızlıq da var: oxucunu bu qədər informasiya çoxluğunda "qorxutmaq". Adını nə qoysaq da, kitab ətrafına toplaşmaq alaçıq ətrafına toplaşmaqla eyni deyil. Kitabı seçmək üçün paralellər, alternativlər, fərqli kontekst yanaşmaları təklif etmək mühümdür. Əgər alaçıq ətrafına toplaşarkən sevinə biliriksə, deməli, kitab da bizi sevindirə, hətta birləşdirə bilər. Bakının, onun geniş ətrafının (bütün bölgələr nəzərdə tutulur!) kitabdan sevinməsi artıqca sevinclərimiz də artacaq. Gələcəyə pozitiv, ümidlə baxmağımıza kömək edəcək...

Bakının günəşli günləri Dublindən daha çoxdur. Hər kitab bir sevinc yaratsa, Bakı da sevinməzmi?

# Rəqəmsal dünyanın memarları...

## 13 sentyabr proqramçıların peşə bayramıdır

Görünməyən, amma həyatımızın demək olar ki, hər anında iştirak edən başqa bir dünya da var - kodlar dünyası. Telefonumuzda açılan tətbiqdən tutmuş bank əməliyyatına, sosial şəbəkədən onlayn alış-verişə, hətta bəzi avtomobillərin idarəetmə sisteminə qədər hər şeyin arxasında proqramçıların yazdığı kod dayanır.

Onların işi kənardan çox sadə görünə bilər: kompüter qarşısında oturur, kod yazır və proqram hazır olur. Əslində isə işin ən maraqlı və çətin hissələrindən biri artıq yazılmış kodun içərisində baş verən problemi tapmaqdır.

Yeri gəlmişkən, 13 sentyabr Beynəlxalq Proqramçılar Günüdür. Hər il ilin 256-cı günü beynəlxalq səviyyədə qeyd olunur. Bu gün dünyanın bir çox ölkəsində qeyd olunsa da, Rusiyada rəsmi bayram elan edilib.

Həmin təqvimin qeyd olunması fikri rusiyalı proqramçılar Mixail Çervyakov və Valentin Balt tərəfindən 2002-ci ildə irəli sürülüb. Onlar 256 rəqəmini ikili kod sisteminə, yəni rəqəmsal informasiyada səkkiz bitin bir baytla ifadə olunduğu fərqli dəyərlərə görə seçiblər.

**Səhvi tapmaq bəzən kod yazmaqdan çətindir**

Proqramlaşdırmada "bug" adlandırılan xətalar bəzən bir simvol, bir nöqtə və ya bir işarə qədər kiçik səbəbdən yaranır. Nəticədə isə böyük bir sistem işləməyə bilər. Məhz buna görə proqramçıların işində maraqlı bir paradoks var: bəzən saatlarla görülən iş bir sətr kod yazmaqdan deyil, həmin bir sətrin niyə işləmədiyini tapmaqdan ibarət olur.

**İnsan davranışını da düşünürlər...**

Maraqlıdır ki, proqramçıların işində yalnız texniki bilik kifayət etmir. O, istifadəçini də düşünməlidir. Məsələn, mobil tətbiqin düyməsi harada yerləşməlidir? İnsan həmin düyməni asanlıqla tapa biləcəkmi? İstifadəçi parolunu səhv yazanda sistem nə etməlidir? Yaşlı insan və ya texnologiyaya çox bələd olmayan biri tətbiqdən rahat istifadə edə biləcəkmi?

Bütün bunlar proqramlaşdırmanın görünməyən tərəfləridir. Yaxşı proqramçı əslində təkcə kompüterin deyil, insanın da necə düşündüyünü anlamağa çalışır.

**Bir fincan qəhvə, yüzlərlə sətir kod...**

Proqramçıların işi haqqında formalaşmış stereotiplərdən biri də kompüter qarşısında saatlarla oturmaq, yanında qəhvə və ekranda saysız-hesabsız kod sətrləridir. Bu görüntüdə müəyyən həqiqət payı var. Lakin proqramlaşdırma yalnız kod yazmaqdan ibarət deyil. Proqramçılar uzun müddət problemi analiz edir, başqalarının yazdığı kodu oxuyur, testlər aparır, həmkarları ilə müzakirə edir və yeni texnologiyalar öyrənirlər. Texnologiya elə bir sahədir ki, dünən öyrəndiyin bilik bu gün artıq yenilənə bilər.




**Kodun bir sətri - böyük nəticə**

Proqramlaşdırmanın ən heyrətamiz tərəflərindən biri onun miqyasındadır. Bir proqramçı tərəfindən yazılan kod sonradan yüz minlərlə, hətta milyonlarla insan tərəfindən istifadə edilə bilər. Bir vaxtlar yalnız mütəxəssislərin istifadə etdiyi texnologiyalar bu gün adi həyatımızın bir hissəsinə çevrilib. Taksi sifariş edirik, pul köçürürük, xəritədə ünvan tapırıq, alış-veriş edirik, film izləyirik, süni intellektlə danışırıq - bütün bunların arxasında müxtəlif səviyyələrdə proqram təminatı dayanır. Başqa sözlə, proqramçı bəzən öz masasından qalxmadan dünyanın müxtəlif yerlərində insanların həyatına toxunan bir məhsul yarada bilir.

**Proqramçılar həm işləyir, həm də öyrənir**

Bu peşənin digər maraqlı tərəfi isə daim öyrənmək məcburiyyətidir. Yeni proqramlaşdırma dilləri, platformalar, süni intellekt alətləri və təhlükəsizlik tələbləri ortaya çıxdıqca proqramçı da öz biliklərini yeniləməlidir. Ona görə proqramçı üçün "mən artıq hər şeyi bilirəm" cümləsi, demək olar ki, mümkün deyil. Bəlkə də bu peşənin ən maraqlı xüsusiyyəti məhz budur: Proqramçılar həm işləyir, həm də öyrənir, öyrəndikcə isə onun qarşısında daha böyük texnoloji dünya açılır.

**Gələcəyin dili kod ola bilər**

Bu gün süni intellekt, robototexnika, kibertəhlükəsizlik, avtomatlaşdırma və ağıllı sistemlər sürətlə inkişaf edir. Bu dəyişikliklərin mərkəzində isə yenə proqram təminatı dayanır. Proqramçılar artıq sadəcə sayt və mobil tətbiq hazırlayan insanlar deyil. Onlar səhiyyədən maliyyəyə, təhsildən nəqliyyata qədər müxtəlif sahələrdə gələcəyin texnologiyalarını qururlar.

Beynəlxalq Proqramçılar Günü də bizə xatırladır ki, texnologiyanın arxasında yalnız maşınlar və alqoritmlər yoxdur. Hər kod sətrinin arxasında bir insanın düşüncəsi, səbri, yaradıcılığı və bəzən də saatlarla davam edən "bu niyə işləmir?" mübarizəsi dayanır.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1162**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova